www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 dekabr 2016-cı il Bazar ertəsi № 270 (6591) Qiyməti 60 qəpik

## Xəbər

### Dəm qazı daha iki can aldı

yazısı səh.10-da

## Gündəm

### Qarabağ məsələsi Kreml üçün prioritetə çevrilir?



Rusiyanın yeni xarici siyasət konsepsiyası konfliktin həllinə nə vəd edir - ədalətli nizamlama, yoxsa daha uzun müddətə konservləşdirmə?

yazısı səh.9-da

### Əhali oğlunu əsgər göndərmək üçün rüşvət verir - əməkdaşlarımız Dərbənddən yazır

yazısı səh.12-də

### Ölkə iqtisadiyyatı üçün ən ağır il - 2016, yoxsa 2017? - Ekspertlər deyir ki...

yazısı səh.6-da

### Sabiq polis rəisinin başı dərddə - məhkəməyə zorla gətiriləcək

yazısı səh.10-da

### Mənzil bazarında bahalaşma gözlənilmir - ekspertdən maraqlı şərh

yazısı səh.14-də

### Türkiyə və Rusiya gizli Suriya anlaşması içində

yazısı səh.11-də

### Qarabağ qazisi övlad qatili oldu - Salyanda qan donduran ailə dramı

yazısı səh.14-də

### Elektrik enerjisinə necə qənaət etməli? - İqtisadçı alimdən tövsiyələr...

yazısı səh.6-da

### Düşmən təlaşda: "Tramp bir dəfə də olsun, erməni sözünü dilə gətirməyib"

yazısı səh.9-da

### Əməkdaşımızın Qasım bəy Zakirin nəslindən olan heykəltəraşla söhbəti

yazısı səh.13-də

## Strateji tərəfdaşlıqdan strateji müttəfiqliyə - tarixi qərar anı

# ERMƏNİSTANIN HƏRBİ BALANS YARATMAQ ÜMİDİ HƏMİŞƏLİK BASDIRILIR - GÖZLƏNİLMƏZ GƏLİŞMƏ

İlham Əliyevin kritik səfəri - ya Türkiyə, ya da Pakistanla...; iki dost dövlətdən biri ilə Azərbaycanın hərbi müttəfiqlik müqaviləsi imzalamasının zamanı çatıb; prezidentin ziyarətini Pakistan səbirsizliklə gözləyir; baş nazir Nəvaz Şərifi "füsunkar oğlan" adlandıran Donald Trampdan erməniləri məyus edən müjdə...




yazısı səh.8-də

## Bakıda öldürülən vəhhabi ilə bağlı yeni məlumatlar - Emin Cami kimdir?

2009-cu il yanvarın 14-də həbs edilən E.Cami "Abdulla" ləqəbli Azər Misirxanovun dəstə üzvü kimi 8 il həbsdə yatıb; Caminin təhlükəli əməlləri haqda məlumat olduğu halda niyə o, əhalinin kütləvi toplaşdığı məkana getməzdən əvvəl zərərsizləşdirilməyib?

yazısı səh.4-də



*Qüdrət Həsənquliyev:*

### "İntuisiyam deyir ki, nəsə xoşagəlməz bir proses başladılıb"

yazısı səh.7-də



Ruslan Çovdarov

### "Atam deyir, barəmdə çox pis yazırlar..." - Akif Çovdarovun oğlundan yeni açıqlamalar

yazısı səh.5-də



*Sabir Rüstəmxanlı:*

### "Poroşenko düz deyir, SSRİ dağılıb, amma ruhu yaşayır"

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

# Dörd ölkə BMT-nin təcili iclasının çağırılması üçün müraciət etdi

**Türkiyə, Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirlikləri Suriyanın Hələb şəhərində vəziyyəti müzakirə etmək üçün BMT Baş Assambleyasının təcili iclasının keçirilməsi üçün müraciət ediblər. APA-nın "Əl-Cəzirə" telekanalına istinadən verdiyi məlumata görə, bu ölkələr BMT Təhlükəsizlik Şurasının konsensus olmadığı üçün bu məsələni həll edə bilmədiyini nəzərə alıb, BMT Baş Assambleyasının təcili iclasının keçirilməsini vacib hesab ediblər.**



Hələbdə hazırda hökumət və azad Müxalif Suriya Ordusu arasında qanlı döyüşlər gedir. Şəhərin şərq hissəsi müxaliflərin nəzarətindədir. Müxalifləri mühasirəyə alan Suriya ordusu hücumlarını davam etdirir.



## Almaniyada MİT qorxusu: "Türk kəşfiyyatı..."

**Almaniya hökuməti Türkiyə Milli İstihbarat Təşkilatı (MİT) ilə bağlı daha sərt tədbirlər görməlidir. Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Almaniya Sol Partiyasının rəsmi nümayəndəsi Martina Renner söyləyib.**

MİT-in Almaniyada geniş agentura şəbəkəsi qurduğunu söyləyən Renner bunun Almaniya üçün təhdid olduğunu bildirib: "MİT-in Almaniyadakı fəaliyyəti bizim ölkədə yaşayan müxalif güclər üçün təhdiddir. Ona görə də MİT-lə çalışanlar cəzalandırılmalı, agentlər ölkədən çıxarılmalı və MİT-lə iş birliyi yekunlaşdırılmalıdır".

Qeyd edək ki, son günlər Almaniya mətbuatında MİT-lə bağlı geniş yazılar dərc olunmağa başlayıb. Mətbuat türk kəşfiyyatının ölkədə geniş agentura şəbəkəsinin olduğunu bildirib. Bu agentura şəbəkəsinin 6 min üzvü olduğu iddia edilir.

## ADR qeydiyyat üçün təkrar müraciət edəcək

**Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatı dövlət qeydiyyatı üçün təkrarən Ədliyyə nazirliyinə müraciət edəcək. Bu barədə qərar qurumun iki gün əvvəlki toplantısında müzakirə edilib.**

ADR-in İdarə Heyəti üzvləri ADR Hərəkatının dövlət qeydiyyatına alınmaması ilə bağlı Ədliyyə Nazirliyinin cavabını müzakirə ediblər. Çıxış edənlər bildiriblər ki, nazirlik qanuna görə, qeydiyyat sənədlərində olan bütün çatışmazlıqlara dair iradların hamısını ilk müraciətə cavab məktubunda bildirməli olsa da, onlar qanunun müvafiq tələblərinə əməl etməyərək, artıq 4-cü dəfədir ki, müxtəlif irad və bəhanələrlə ADR Hərəkatının dövlət qeydiyyatını uzadırlar.

Müzakirələrdən sonra qərara alınıb ki, qısa müddətdə ADR Hərəkatının təsisçiləri təşkilatın qeydiyyatı ilə bağlı sənədləri yeniləşdirib təkrarən Ədliyyə Nazirliyinə müraciət etsinlər. ADR sədri Qubad İbadoğlu musavat.com-a bildirib ki, nazirlik beşinci dəfə də qurumu qeydiyyata almaqdan imtina etsə, məhkəməyə müraciət ediləcək.

❑ Röya

## Ruhani ABŞ-ı hədələdi: "Təcili addımlar atacağıq"

**İran Prezidenti Həsən Ruhani amerikalı həmkarı Barak Obamanın sanksiyaların daha 10 il uzadılması barədə qanunu imzalayacağı halda cavab tədbirləri həyata keçirələcəyini bəyan edib. Axar.az "Tasnim" agentliyinə istinadən xəbər verir ki, Ruhani Vaşinqtonun qəbul edəcəyi qərarın anlaşmaya zidd olduğunu deyib: "Biz razılaşmaya riayət etməyə çalışırıq. Lakin bu razılaşma pozulacağı təqdirdə biz təcili cavab addımları atacağıq".**

Xatırladaq ki, İrana tətbiq olunan sanksiyaların daha 10 il uzadılması barədə qərar Nümayəndələr Palatası və Senatda səs çoxluğu ilə qəbul edilib. Qanunun qüvvəyə minməsi üçün Prezident Barak Obamanın təsdiqi lazımdır.

## Yataq otağından zorla aparılan 16 yaşlı qız tapıldı

**Dekabrın 2-də Türkiyənin İzmir şəhərində 16 yaşlı qızın yaşadığı mənzildən müəmmalı şəkildə qaçırılması böyük marağa səbəb olmuşdu. Lent.az "İxlas" xəbər agentliyinə istinadən xəbər verir ki, İzmirin Karabağlar rayonunda ata anası və bacısı işdə olarkən yatdığın yerdən qaçırılan Ayşenur S. İstanbulda tapılıb.**

Dünən qızın valideynlərinə zəng edən şəxs Ayşenuru Esenler adlanan yerdə yol kənarında huşsuz vəziyyətdə tapdığını və onun telefonunu götürərək əlaqə saxladığını deyib. Bildirilir ki, evdə kimsənin olmadığını bilən narkotik alveri və fahişəliklə məşğul olan şəbəkə üzvləri 16 yaşlı qızı zorla aparıblar. Bir neçə saat sonra evə qayıdan valideynləri yataq otağında qan ləkələri və cırılmış paltarlar görüncə, dərhal polisə məlumat veriblər.

Olayla bağlı artıq bir nəfər şübhəli şəxs qismində saxlanılıb.



## Zaqatalada tibb bacısını vəhşicəsinə döydülər

**Zaqatalada qonşusu tərəfindən vəhşicəsinə döyülən tibb bacısı komaya düşüb. Zaqatala Mərkəzi Rayon Xəstəxanasından (MRX) APA-nın Şəki-Zaqatala bürosuna verilən məlumata görə, dünən saat 10:30 radələrində Zaqatala şəhəri "Kür-Araz" adlanan yaşayış massivində yaşayan, 1962-ci il təvəllüdlü Xədicə Herov qızı Muradova travmatik şok vəziyyətdə və ağır kəllə-beyin travması ilə xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilib.**

Müayinə zamanı məlum olub ki, bir uşaq anası olan və Zaqatala MRX-nın poliklinika şöbəsində tibb bacısı vəzifəsində işləyən X. Muradova qonşusu İbrahim adlı şəxs tərəfindən vəhşicəsinə döyülüb.

Zaqatala rayon Polis Şöbəsindən bildirilib ki, hadisə səhər saatlarında X. Muradovanın yaşadığı ünvanda baş verib. X. Muradovanın qonşuluğunda yaşayan və uzun müddətdir ki, əsəb xəstəliyindən əziyyət çəkən İbrahim adlı şəxs hələ ki istintaqa məlum olmayan səbəbdən qadını vəhşicəsinə döyərək ona ağır bədən xəsarətləri yetirərək hadisə yerini tərk edib. Keçirilmiş tədbir nəticəsində hadisəni törətməkdə şübhəli sayılan saxlanılıb. Faktla bağlı Zaqatala RPŞ-də araşdırma aparılır.



## Putin türklərin tikdiyi körpüyə heyran qaldı

**Türkiyənin İçtaş-Astaldi konsorsiumu (İCA) Sankt-Peterburq dairəvi yolunun tikintisini başa çatdırıb. Axar.az xəbər verir ki, yolun açılışında Prezident Vladimir Putin də iştirak edib. Dünya standartlarına cavab verən magistral yolun uzunluğu 46,6 kilometrdir. Avtomobillərin saatda 120 kilometr sürətlə hərəkətinə imkan verən bu yol 15 aya inşa edilib. Qeyd edək ki, İstanbulda yeni istifadəyə verilən Yavuz Sultan Səlim körpüsünü də İCA inşa edib.**

## Sevda Ələkbərzadə: "Heç vaxt siyasətə qoşulmayacağam"

**Müğənni Sevda Ələkbərzadə bacısı Emma Ələkbərzadə ilə duet oxuyacaq. Sənətçi bu barədə musavat.com saytına açıqlamasında deyib: "Yeni duet ifa etmişəm. Tezliklə onu dinləyicilərə təqdim edəcəyəm. Romantik, sevgi haqda mahnıdır. Mahnı sevilsə, klip çəkdirmək haqda düşünəcəyəm. Minikonsertlərim olur, səhnəyə çıxıb tez-tez tamaşaçılarla ünsiyyətdə oluram. Bacım Elmira Ələkbərzadə ilə duet oxumaq istəyirik. Illər öncə oxuduq, uğurlu oldu, birini də istəyirik. Yavaş-yavaş yaradıcılıq işlərimizi görürük. Bu sənətdə nələrsə etməyə çalışırıq".**

Müğənni xeyli çəki verməsinin səbəbini də açıqlayıb:"6 ay həm diet saxladım, həm idmanla məşğul oldum. Üzgüçülüyə də gedirəm. 10-11 kilo çəki itirmişəm. Heç vaxt kök olmamışam. Bir az kilolu idim. Artıq istədiyim kiloya çatmışam. Bundan sonra arıqlamayacam. Sadəcə çalışacağam ki, çəki almayım".

"Sizi daim dövlət tədbirlərində görürük. Nə zamansa, siyasətə qoşulmaq fikriniz varmı" sualına isə müğənni belə cavab verib: "Siyasət mənə uzaq sahədir, anlayışım yoxdur, sevmirəm. Mənimki incəsənətdir. Dövlət əhəmiyyətli tədbirlərə tez-tez dəvət alıram. Orada çıxış etmək mənə xoşdur".

❑ Könül İBRAHİM

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

## Hava daha da soyuyacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti gözlənilən qeyri-sabit hava şəraiti ilə bağlı xəbərdarlıq edib. Nazirliyin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, dekabrın 5-6-da Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin arabir güclənəcəyi gözlənilir.**

Dekabrın 5-də axşam, dekabrın 6-da arabir yağış yağacağı, bəzi yerlərdə sulu qara, qara keçəcəyi ehtimalı var. Havanın temperaturu 5-8° aşağı enəcək, maksimal temperatur gündüz saatlarında 3-5° isti təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, dekabrın 5-i günün ikinci yarısında, 6-da ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu 3-6° aşağı enəcək. Yolların buz bağlama ehtimalı var.

## Rusiya təyyarəsini vurma əmrini verənin kimliyi açıqlandı

**"Su-24" qırıcısını vurmaq üçün nə prezident, nə də baş nazir əmr verib". Axar.az xəbər verir ki, bunu Rusiya Elmlər Akademiyasının Şərq İnstitutu araşdırmaçısı Ruslan Qurbanov deyib. Onun sözlərinə görə, göstərişi İncirlik hərbi bazasında növbətçi olan bir polkovnik verib. Rusiya kəşfiyyatı həmin polkovnikin Gülənin adamı olduğunu aşkar edib:**

"Türkiyədə baş verən dövlət çevrilişinə cəhddən sonra xalqın NATO ilə bağlı düşüncələri ortaya çıxdı. Çevrilişə cəhdin planı İncirlikdə hazırlanıb. Türkiyə bu təhlükəni indi də hiss edir. Ancaq Ankaranın NATO-dan ayrılacağını demək doğru olmaz. Gülənin cəmiyyətdə yaratdığı təşkilat iqtidarın mərkəzinə çatdı. Burada təşkilata ABŞ-dan güclü yardım gəlirdi. Təşkilat əslində Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) bir qoludur. On illərdir dövlətə sızdılar. Gülənin ABŞ-da yaşamasına da MKİ yardım etdi".

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

# Elektrik və qaza görə kvotalar artırıla bilərmi?

**"Tarif Şurasının qərarı ilə istehlak olunan qaz və elektrik enerjisinin güzəştli kvotaları artırılsın". Bu təşəbbüslə Milli Məclisin deputatı Fəzail Ağamalı çıxış edib. Deputat enerjidaşıyıcılarının qiymətinin artmasından bəhs edib və Tarif Şurasının son qərarına yenidən baxılmasını zəruri sayıb.**

"Tarif Şurasının qəbul etdiyi qərarlarla ölkə prezidentinin həyata keçirdiyi siyasətdə bir uyğunsuzluq var və bu, nəzərə alınmalıdır. Sahibkar ayda 25 min manat qaz pulu ödəyirdisə, bundan sonra 50 min manat olacaq. Nəzərə almalıyıq ki, istixanalara güzəşt yoxdur, avadanlıqlar xaricdən alınır. 7 ay ərzində tərəvəz məhsullarının istehsalında ciddi problemlər olacaq... Heç olmasa, vətəndaşlara ayrılan kvota artırılsın" - deputat deyib.

O, işığa 250 kilovat/saat əvəzinə, 500 kilovat/saat, qaz üçün limitin isə 1500-dən 3000 kuba qaldırılmasını təklif edib. Fəzail Ağamalının bu təklifi ictimaiyyət tərəfindən bəyənilir. Bəs görəsən, qaz və elektrik



enerjisinin güzəştli kvotalarını artırmaq mümkündürmü?

İqtisadçı Qadir İbrahimli mövzuya bu cür şərh bildirdi:

"Ümumiyyətlə, mənim məsələyə şəxsi baxışım ondan ibarətdir ki, Tarif Şurasının qərarı ləğv olunsun. Çünki bu qərar böyük bahalaşmanın, insanların yoxsullaşmasının əsasını qoydu. Bu, iqtisadi və sosial əhəmiyyəti olmayan bir qərar idi. Bəli, Fəzail Ağamalı çox haqlıdır. Kvotaların artırılmasına zərurət var. Hesab edirəm ki, hökumət bu qanunu ləğv etsin, ya da kvotaları, xüsusən də qaz kvotasını ən azı 3 dəfə artırsın".

İqtisadçı kvotaların artımının mümkün olduğunu dedi: "Sadəcə, kommunal sektorda olan müəssisələrdə korrupsiyanı azaltmaq lazımdır. Son 10 ildə təbii qazın qiyməti düz 33 dəfə bahalaşaraq təxminən 5 dəfə artırılıb. Ola bilməz ki, dəfələrlə artım olsun və şirkətlər onu ödəyə bilməsin və növbəti artıma zərurət olsun. O baxımdan hesab edirəm ki, həmin şirkətlərdə, yeni istər "Azərişıq", istərdə də "Azərqaz"da müstəqil auditorlar təyin olunmalıdır. Həmin auditorlarda bir daha göstəricilər analiz edilməlidir. Heç bir şübhə etmirəm ki, müstəqil auditorun yoxlanılması keçirilsə həmin korrupsiya faktları üzə çıxar. Bəlli olacaq ki, həm maliyyə dəyəri süni şəkildə şişirdilir, həm itkilərin həcmi qat-qat çox göstərilib, həm də şərait yaradılıb ki, növbəti qiymət artımına "əsas" olsun. Bu korrupsiya mühiti ləğv edilsə, həmin şirkətlərdə şəffaflıq mühiti yaradılsa, qiymət artımına da ehtiyac qalmaz və hökumət həmin şirkətlərdən kifayət qədər böyük maliyyə gəlirləri əldə edə bilər".

❑ Xalidə GƏRAY

# "Poroşenko düz deyir, SSRİ dağılıb, amma..."

## Sabir Rüstəmxanlı: "Demokratik cəmiyyət qurulmalı, iqtisadiyyat inkişaf etdirilməli idi ki, heç kəs köhnə günlərin xiffətini çəkməsin"

**Ukrayna prezidenti Pyotr Poroşenkonun Sovet İttifaqının dəfn olunmaması ilə bağlı fikirləri MDB məkanında ciddi müzakirə mövzusuna çevrilib. Polşada "Liderlik forumu" çərçivəsində keçirilən konfransda çıxışı zamanı prezident deyib ki, "Sovet İttifaqı nə sənəddə, nə də Belovej cəngəlliyindədir. Sovet İttifaqı başlardadır. Və açıq danışdığım üçün üzr istəyirəm, Ukrayna indi bəzilərinin başlarında olan Sovet İttifaqının dəfn olunması üçün vuruşur, çünki müharibə üçün bir bəhanə mövcud deyil".**



Poroşenko əlavə edib ki, 25 il əvvəl Ukrayna müstəqillik əldə edib: "Sovet koloniya keçmişinin yeni və köhnə versiyaları, dəqiq bizim üçün deyil. Bizim üçün olan Avropanın birliyidir".

P.Poroşenkonun SSRİ-nin başlarda hələ də mövcud olması ilə bağlı dedikləri ölkəmiz üçün də tanış səhnədir. Belə ki, xalq arasında, xüsusilə, yaşlı təbəqə nümayəndələri tərəfindən bu cür fikirlər hər zaman səslənir. Buna səbəb kimi, əhalinin sosial durumu göstərilir. İşsizlikdən, evsizlikdən, maddi durumdan əziyyət çəkənlər keçmişə boylanır, sovet dövründə bu cür halların az olduğunu qeyd edirlər.

Xalq hərəkatının öncül isimlərindən olan, VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı bildirdi ki, insanlara xas olan bir cəhət var: "İnsanlar daim keçmişlərinin xiffətini çəkirlər. Keçmiş həmişə uşaqlıq, gənclikdir. Keçmiş geri qayıtmayan yaşanan bir ömürdür. Gələcək isə naməlumdur. Buna görə də insanlar keçmişlə yaşamağı sevirlər. XX əsrin 20-ci illərində Rusiyada baş verən inqilabdan sonra insanların çox hissəsi inqilabdan əvvəlki Rusiyanın xiffətini çəkirdilər. Bir müddət sonra onların çoxu mühacirətə getdilər, 1937-ci ildə güllələndilər. Bu baxımdan belə fikirlərin olması təbiidir. Tarixin bütün dövrlərində buna bənzər hadisələr olub. SSRİ-ni Rusiya qurmuşdu. SSRİ adlanan məkan Rusiyanın bir çox xalqları zorla özünə birləşdirmək üçün ilhaqçı siyasətinin nəticəsi idi. SSRİ-nin dağılması əslində Rusiyanın qazandıqlarından imtinası demək idi. Rusiya isə bundan imtina etmək istəmir. Yenə də "bəlkə qaytardıq" psixologiyası Rusiyada hələ də yaşayır. Bütün vasitələrlə indinin özündə Rusiya bunu tətbiq edir. Dövlətlərin iqtisadi çətinliklərindən, müharibələrdən, öz yaratdığı münaqişələrdən istifadə edir. Münaqişələri ona görə yaradıblar ki, həmin ölkələr Rusiyadan qopmasınlar. Bunun üçün xalqlar arasında SSRİ-nin xiffətini yaratmaq istəyir. Çalışırlar ki, xalqlar o dövrü yaşasınlar, yenidən onun geri qayıtmasını istəsinlər. Təəssüf ki, yeni yaranmış respublikalarda kommunistlər, Moskvadan yararlanmış şəxslər, Rusiya sayəsində adam olanlar, xüsusilə etniklər buna çalışırlar. Etnikləri Rusiya hər bir yerdə yerli xalqdan önə çıxarırdı. Çalışırdılar ki, həmin etniklər rus dilində təhsil alsınlar. Bu şəxslər Rusiyanın qayıtmasına sevinərlər. Ona görə də, bir çoxu övladlarını rus dilində oxudur, təhsil almaq üçün Rusiyaya göndərir, milli hökumətə xidmət etməkdənsə Moskvaya xidmət etməyə çalışırlar. Bu meyllərin olması bir reallıqdır. Amma bunların heç biri müstəqilliyi əvəz edə bilməz. Ev problemini bəzən öne çəkirlər. SSRİ dövründə evlə təmin olunmağın daha asan olduğu deyilir. Amma indiki dövrü o dövrlə müqayisə etmək olmaz. Bakıda nə qədər istəyirsən ev var, boş evlər də var. Kimsə istəsə, istənilən yerdə ev tikə bilər. Bürokratik çətinliklər də olsa, bunu sovet dövrü ilə müqayisə etmək olmaz. İqtisadi cəhətdən düzdür, əhalinin çətinlikləri var. Lakin yenə də bunu SSRİ dövrü ilə müqayisə etmək olmaz".

S.Rüstəmxanlı yaşlı təbəqə arasında bu cür fikirdə olanlara sərt münasibət sərgilədi: "O şəxslərə Musa Peyğəmbər kimi adam lazımdır. Onları səhraya aparıb, susuz çöllərdə gəzdirsin, onlar da köhnə zamanı unudub, müstəqilliyin qədrini bilsinlər. Həmin şəxslər ona görə keçmişi unuda bilmirlər ki, Moskvada oxuyublar, öz ana dillərini bilmədən, vətənə xidmətləri olmadan Rusiya onları irəli çəkmiş, yüksək vəzifələr vermişdi. Onlar da Rusiyaya daha yaxşı xidmət etdiklərinə, adət-ənənələrindən uzaqlaşdırlarına görə təltif olunurdular. O dövlətin hesabına irəli getmişdilər. Əlbəttə onlar üçün indiki dövrdə yaşamaq çətindir. Onların üzündən, yazılarından bunu sezmək çətin deyil. Həmin şəxslərin içərisində övladları Qarabağ savaşına getməyən, amma II Dünya Müharibəsində Berlinə qədər savaşanlar var. Bu baxımdan Rusiya ilə bağlılıqları qalır. Sosial durumun aşağı olması halları da burada var. Ola bilər ki, SSRİ dövrü onlara daha cazibədar görünsün. Amma prinsipcə müstəqilliklə o dövrü bütün sahələrdə müqayisə etmək olmaz. Poroşenko düz deyir, SSRİ dağılıb, amma onun ruhu, xatirəsi, gizli gücləri, kəşfiyyat orqanları, münaqişə yaratmaq istəkləri hələ də yaşayır. Demokratik cəmiyyət qurulmalı, iqtisadiyyat inkişaf etdirilməli idi ki, heç kəs köhnə günlərin xiffətini çəkməsin. Bu da müəyyən vaxt istəyir. Yəqin ki, müəyyən vaxtdan sonra bunlar qaydasına düşəcək".

❑ Cavanşir ABBASLI



# Manat dəyər itirməkdə davam edəcək - ekspertlər

## Onların fikrincə, mövcud şərtlər milli valyutanın xeyrinə işləmir

**Milli valyuta olan manatın durumu pisləşməkdədir. Dolların dekabrın 5-nə olan məzənnəsi 1,7339 səviyyəsində müəyyən olunub. Ekspertlər manatın dəyər itirməsinin davamlı olacağını vurğulayırlar.**

Ekspert Vüqar Bayramov bildirib ki, OPEK-in hasilatının azaldılması ilə bağlı razılaşmasından sonra manatın məzənnəsinin necə dəyişəcəyi yenidən gündəmdədir: "Aydındır ki, neftin qiyməti manatın məzənnəsi üçün önəmlidir. Amma mövcud qiymət milli valyutamızın məzənnəsini stabilləşdirə bilərmi, ümumiyyətlə, manatın kursunun stabilləşməsi üçün neftin qiyməti neçə olmalıdır? Qeyd etmək lazımdır ki, manatın məzənnəsi üçün neftin qiyməti ilə yanaşı, Dövlət Neft Fondundan xərcləmələr səviyyəsi olduqca vacibdir. Çünki manatın taleyini artıq daha çox Mərkəzi Bankın intervensiyası deyil, Neft Fondunun hərraca çıxardığı dolların məbləği müəyyənləşdirir. Bu baxımdan, fondun xərcləmələrinin artması birbaşa dollar təklifini artırır və ya əksinə, "az xərcləmə az dollar" deməkdir. Bu ilin 9 ayında 4 milyard dollar satan fond həmin müddətdə cəmi 3 milyard 823 milyon manat xərcləyib. Həmin müddətdə manatın dollara orta məzənnəsini nəzərə aldıqda bu o deməkdir ki, sözügedən dövrdə fondda orta hesabla 2 milyard 440 milyon manat milli valyuta artıqlığı olub. Təbii ki, fond belə manat artıqlığı prinsipi ilə uzun müddət hərraclara çıxa bilməz və bu sözügedən qurumun strategiyasına da tam uyğun gəlmir. Deməli, dövlət xərcləmələri və Neft Fondunun dollar satışı manatın məzənnəsi üçün yaxın illərdə əsas amil olacaq. Ehtiyatlarının 75 faizini itirən Mərkəzi Bank 4 milyard dollarlıq rezervi ilə artıq prosesə birbaşa müdaxilə etməkdə maraqlı görsənmir".

Ekspertin fikrincə, deməli, neftin indiki qiymət artımları Azərbaycanda dollara olan tələbi azaltmayacaq və təbii ki, bu kontekstdən manatın məzənnəsinin möhkəmlənməsi real deyil: "Digər tərəfdən, neftin dünya bazar qiyməti hətta 60 dollara çatsa da belə bu manatın möhkəmlənməsi üçün yetərli deyil. Çünki bu halda da fondun qənaət prinsipi davam edəcək və nəticədə bazarda dollar qıtlığı olacaq. Eləcə də 2017-ci ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin həcmi azalmaqda davam edəcək. 2017-ci ildə 1,5 milyard manat azalmadan söhbət gedir. Deməli, fond gələn il daha az dollar satacaq. Ona görə də neftin dünya bazar qiyməti manatın məzənnəsi üçün əhəmiyyətli olsa belə, hələlik mövcud qiymət valyuta bazarımıza təsir etmir. Bizim qiymətləndirmələr göstərir ki, əgər neftin qiyməti kəskin artmazsa və bazara ciddi intervensiya olmazsa, növbəti ildə də dollara tələbin artması fonunda manatın ucuzlaşması müşahidə ediləcək. Bütövlükdə bu ilin ortalarında qeyd etdiyim kimi, gələn il Rusiya və Qazaxıstanda olduğu kimi, Mərkəzi Bank mövcud məzənnə siyasətindən istifadə edib liberal üzən siyasətə keçməsi ehtimalı kifayət qədər yüksəkdir. Bu halda isə, hətta neft fondunun mövcud transferləri də manatın ucuzlaşmasının qarşısını ala bilməyəcək".

Ekspert Samir Əliyev isə qeyd edib ki, noyabrda pul bazası 3,4 faiz artaraq 7,7 milyard manata çatıb: "Bu, son 20 ayda ən yüksək göstəricidir. Milli valyutaya təzyiqi azaltmaq məqsədilə Mərkəzi Bank uzun müddət pul kütləsini azaltmaq siyasəti yürüdüb. Yanvar ayında pul bazasını minimal həddə - 5,8 milyard manata endirmişdi. İlin sonuna doğru büdcə vəsaitlərinin dövriyyəyə buraxılması pul bazasının artmasına səbəb olub. Mərkəzi Bank da dövriyyəyə buraxılan pul vəsaitlərin bazara təsirini azaltmaq üçün depozit hərracndan savayı not buraxmağa qərar verib. Pul bazasının dekabr ayında da artmasını ehtimal etmək olar. Çünki il başa çatdığından büdcə öhdəliklərinin icrası dövriyyəyə əlavə manat buraxılmasını tələb edir".

Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, dollar ən yaxşı halda, 1,90 manata qədər bahalaşacaq: "Hesab edirəm ki, manat ən yaxşı halda 1,90-na gedib çatacaq. Bu da ilin sonuna dollara olan tələbatın artmasıdır. İlin sonuna FES faiz dərəcəsini artırsa, vəziyyət daha ciddi olacaq. Bu artım da gözləniləndir. Bununla bərabər, neftin qiymətini ucuzlaşması da gözlənilir. Bunlar olsa, manat daha da ucuzlaşacaq".

❑ RÖYA

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

**Xəbər verildiyi kimi, dekabrın 3-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) həyata keçirdiyi əməliyyat nəticəsində Cami Emin Əzizağa oğlu Bakı ətrafındakı ictimai yerlərdən birində öldürülüb. Məlumatda bildirilir ki, E.Caminin saxlanılması üzrə əməliyyat tədbiri həyata keçirilərkən, sonuncu müqavimət göstərərək üzərində olan "şəhid kəməri"ni partlatmağa cəhd edib, cavab tədbiri olaraq xüsusi əməliyyat qrupu tərəfindən məhv edilib.**

# Bakıda öldürülən vəhhabi ilə bağlı yeni məlumatlar - Emin Cami kimdir?

## 2009-cu il yanvarın 14-də həbs edilən E.Cami "Abdulla" ləqəbli Azər Misirxanovun dəstə üzvü kimi 8 il həbsdə yatıb; Caminin təhlükəli əməlləri haqda məlumat olduğu halda niyə o, əhalinin kütləvi toplaşdığı məkana getməzdən əvvəl zərərsizləşdirilməyib?

1978-ci il təvəllüdlü E.Cami 2007-ci ildə zərərsizləşdirilmiş "Əbu Cəfər" ləqəbli Naif əl-Bədəvinin rəhbərlik etdiyi terrorçu təşkilatın tərkibində fəaliyyət göstərdiyinə görə məhkum olunubmuş.

Ölkədə radikal dindarlara qarşı əməliyyatlar 2008-ci ilin avqust ayının 17-də "Əbu Bəkr" məsciddə baş vermiş terror aktından sonra başlayıb. Xatırladaq ki, məscidə atılmış əl qumbarası nəticəsində iki nəfər ölmüş, bir neçə nəfər yaralanmışdı. Bundan sonra MTN bir sıra səs-küylü əməliyyatlar keçirdi. Bunlardan ən yaddaqalanı "Meşə qardaşları" adlı silahlı birləşməni zərərsizləşdirməsidir. "Əbu Bəkr" məscidinin partladılmasında şübhəli bilinən əsas adam, "Meşə qardaşları" silahlı birləşməsinin başçısı, Azərbaycan vətəndaşı İlqar Mollaçiyevin sentyabrın 7-də Dağıstanda öldürülməsindən sonra da Azərbaycanda həbslər davam etdi. 2009-cu il yanvarın 14-də xüsusi plan əsasında keçirilmiş antiterror tədbirləri nəticəsində sıralarında Emin Caminin də olduğu 31 nəfərdən ibarət dəstə ələ keçdi. 2008-ci ildən təşkilatlanan və "Abdulla" ləqəbi ilə tanınan Azər Misirxanovun rəhbərlik etdiyi dəstənin beynəlxalq terrorçu şəbəkə ilə əlaqəsi olduğu iddia edilirdi. Bildirilirdi ki, Azər Misirxanovun dəstəsi Azərbaycanda keçiriləcək prezident seçkiləri ərəfəsində sabitliyi pozmağı, əhali arasında vahimə yaratmaq üçün bir sıra terrorçuluq aksiyalarını təşkil etməyi, o cümlədən "Bakı-Novorossiysk" neft boru kəmərini partlatmağı planlaşdırıbmış. Dəstə üzvlərinin məhkəməsi başlamamış, 2009-cu ilin dekabr ayının 10-da "Abdulla" ləqəbli Azər Misirxanovun Əfqanıstanda ABŞ qüvvələri tərəfindən silahlı birləşmələrə qarşı həyata keçirilən əməliyyat zamanı öldürüldüyü xəbəri yayıldı.

E.Caminin də ittiham olunduğu məhkəmə prosesi 2010-cu ilin yanvarında başladı. Prosesə əvvəl bu cür ittihamlarla keçirilən məhkəmədə hakim olan Əflatun Qasımov sədrlik etsə də, sonradan bilinməyən səbəbdən hakim dəyişdi. Sözügedən məhkəmədə vəkillərdən imtina edən üç nəfərdən biri də məhz Emin Cami idi.

Bu dəfə Azər Orucovun sədrliyi ilə başlayan prosesdə dəstə üzvlərinə Cinayət Məcəlləsinin 279.2 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı qrup), 315.2 (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə), 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham irəli sürüldü.

İttiham olunanlardan biri Asif Əmikişili o vaxt belə bir açıqlama vermişdi ki, indi onu xatırlatmaq yerinə düşür. O,



müxtəlif kütləvi informasiya vasitələrində onlar barəsində radikal vəhhabi olmaları barədə yazılanlara sərt etiraz bildirmişdi: "Bəzi KİV-lərdə bizi radikal vəhhabi adlandırırlar, ancaq bu, belə deyil. Biz vəhhabi deyilik".

Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə radikal dini təmayüllü dəstə yaradaraq, beynəlxalq terrorçu şəbəkə ilə əlaqədə və digər bir sıra ağır cinayətlərdə ittiham olunan 31 nəfərin məhkəmə prosesi 2010-cu ilin 18 iyununda yekunlaşdı.

Məhkəmənin hökmü ilə Emin Cami 8 il, Asif Əmikişili, Rəşid Mustafayev 15 il, Emil Şıxəliyev 14 il , Mahir Allahverdiyev, Firdovsi Quliyev 13 il, Vasif Ömərov, Elməddin Fərəcov, Faiq Cəfərovun 12 il, İbadət Alazov, Teymur Axundov 11 il, Kamran İlyasov, Amil Xəlilov, Elnur Qazıyev, Elşən Druskarın 10 il, Ceyhun Əliyev, Zeynal Əkbərov, Mahir Abdullayev 9 il, Mehdi Kərimov, Tural Həsənov, Alkərəm Məmmədov, Rəşad Nəbiyev, Vüsal İsayevin 7 il, Ramil Fərzəliyev, Namiq Məmmədov 6 il, Elçin Canağayev 5 il, Vüqar Abdullayev, Arif İbrahimov, Fuad Mövsümov, Rəşad Mahmudov 4 il, Bəxtiyar Mustafayev 3 il müddətinə azadlıqdan məhrum edildi.

DTX-nın rəsmi məlumatda bildirilir ki, E.Cami bu ilin əvvəlində azadlığa buraxılıb. Qanunvericiliyin tələbinə görə, məhkumluq müddəti həbs günündən hesablandığı üçün E.Cami məhkəmənin hökmündən sonra 6 il həbsxanada cəza çəkib. Terrorçuluqda adı keçənlər adətən, məhkəmə hökmündən sonra Qobustan həbsxanasına köçürülürlər. E.Caminin hansı həbsxanada cəza çəkdiyi mediaya məlum deyil. Amma DTX-nın məlumatından bu nəticəyə gəlmək olar ki, o, azadlığa çıxdıqdan sonra yenidən qeyri-qanuni fəaliyyətlə məşğul olub. Məlumatda deyilir ki, E.Caminin ölkə ərazisində odlu silahdan və partlayıcı qurğulardan istifadə etməklə terror-təxribat törədilməsini planlaşdırmasına əsaslı şübhələr olub. Güman ki, həbsdən çıxdıqdan sonra o, yenə də izlənib.

Onun zərərsizləşdirilməsinə gəlincə, burada cavabını gözləyən suallar var ki, yəqin, bunlara yaxın günlərdə rəsmi aydınlıq gələcək. Doğrudur, DTX böyük bir təhlükəni dəf edib və terroristi insanlarımıza xətər yetirmədən zərərsizləşdirib və qətliamın qarşısını alıb.

Lakin burada ortaya çıxan əsas sual budur ki, E.Caminin təhlükəli əməlləri haqda məlumat olduğu halda, niyə o, əhalinin kütləvi toplaşdığı məkana getməzdən əvvəl zərərsizləşdirilməyib. Yada salaq ki, oktyabrın 26-da DTX əməkdaşları terrorçuluq fəaliyyətində şübhəli bilinən 21 yaşlı A.Quliyevi də Bakı-İstanbul avtobusunda üzərində olan əl qumbarasını partlatmaq istərkən zərərsizləşdirmişdi.

***Mövzuya qayıdacağıq.***

**❑ "YM"**

# İsrailin baş nazirinin səfəri ərəfəsində təhlükəsizlik təhdidi...

## Ekspert: "Azərbaycana bu işdə ən çox kömək edən elə İsrailin özü olacaq"



**İsrailin baş naziri Benyamin Netanyahu dekabrın 13-də Azərbaycana rəsmi səfər edəcək. Rəsmi açıqlamalara görə, o, Azərbaycanda bir gün qalacaq, növbəti gün isə Qazaxıstana yola düşəcək.**

Bu səfər B. Netanyahunun baş nazir kimi hər iki ölkəyə ilk səfəri olacaq.

Azərbaycana səfəri zamanı o, prezident İlham Əliyevlə görüşəcək. Səfər çərçivəsində iqtisadi sahədə əməkdaşlığa dair bir sıra sənədlərin imzalanması gözlənilir.

Bəs səfər çərçivəsində Azərbaycanda təhlükəsizlik tədbirləri necə alınıb?

Öncə qeyd edək ki, dekabrın 1-də Keniyada İranın iki vətəndaşına qarşı terror aktları törətmək üçün informasiya toplamaq ittihamı irəli sürülüb. "AssociatedPress"in məlumatına görə, iranlılar Azərbaycanda İsrail obyektlərinə qarşı terror aktları planlaşdırırmışlar. Bildirilir ki, İran casusları Azərbaycanda, Tailandda və Hindistanda İsrail obyektlərinə qarşı terror təşkilində şübhəli bilinirlər. O da qeyd edilir ki, bu, ilk dəfə deyil ki, Keniyada terrorizmdə şübhəli bilinən İran vətəndaşları saxlanılır və həbsə məhkum edilir.

Konkret olaraq Azərbaycana gəlincə, illər öncə Bakıdakı İsrail səfirliyi ilə bağlı da oxşar xəbər yayılmışdı. Bəllidir ki, Bakının yəhudi dövləti ilə isti münasibətləri heç vaxt Tehranı qane eləməyib. Xüsusən də İsraillə Azərbaycan arasında son illər hərbi və hərbi-texniki sahədə genişlənən əməkdaşlıq cənub qonşumuzu ciddi narahat etməkdədir.

Bundan arada Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 3-də Binə Ticarət Mərkəzi yaxınlığında Emin Cami adlı terrorçunun saxlanılması üzrə əməliyyat tədbiri həyata keçirilərkən, sonuncu müqavimət göstərərək üzərində olan "şəhid kəməri"ni partlatmağa cəhd edib. O, cavab tədbiri olaraq xüsusi əməliyyat qrupu tərəfindən məhv edilib.

Bir məqamı da qeyd edək ki, İranın "Anaj" xəbər agentliyinin məlumatına görə, Şərqi Azərbaycan əyalətindəki nümayəndəsi Təbrizdə baş tutan cümə namazında bildirib ki, Bakı İsrail baş naziri Benyamin Netanyahunun səfərinin qarşısını almalıdır...

Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl "Yeni Müsavat"a söyləyib ki, belə bir şəraitdə İsrail təhlükəsizlik orqanları da məsələyə qarışacaqlar:

"İlk olaraq onu qeyd edim ki, İranın qarşısından neçə illərdir hansısa geopolitik məqsədlərə görə hər zaman qaçmışıq. İsrail buna çox anlaşıqlı yanaşıb. Yenə də yaxşı ki, İsraillə münasibətlərimiz bu günə qədər pozulmayıb, normal olaraq davam etdirilib. İsrail baş nazirinin də Azərbaycana gəlməsi çox uğurlu bir hadisədir. İran bəyan etsə də, etməsə də onun bütün təhdidlərinə qarşı hazır olmaq lazımdır. Çünki İsraillə bağlı hər hansı addım atılan zaman İran maksimum çalışır ki, burada hansısa bir terror hadisəsi törətsin. Bu məsələdə adətən bizim öz vətəndaşlarımızdan istifadə edirlər. Hələ ki, konkret olaraq terror məqsədi ilə İran vətəndaşlarından istifadə etməyiblər. Ola bilsin ki, baş nazir səviyyəsində səfər varsa, Azərbaycanı təhdid etmək üçün öz vətəndaşlarından da istifadə etsinlər. Düşünürəm ki, hələ də terror təhlükəsi qalır. Bu təhlükə qaldığına görə də baş nazirin səfəri ərəfəsində Dövlət Təhlükəsizlik Xidməti, təhlükəsizliklə məşğul olan bütün təşkilatların vəzifəsidir ki, maksimum şəkildə qabaqlayıcı, önləyici informasiyalar alsınlar. Hər halda İran bu istiqamətdə çox məkrlidir. Hesab edirəm ki, Azərbaycana bu işdə ən çox köməyi elə İsrailin özü edəcək. Çünki İsrail xüsusi xidmət orqanları xüsusilə müsəlman ölkələrində terrora cəhddən ən birinci xəbər tutanlardandır. Hər halda hər iki tərəfin birgə əməkdaşlığı nəticəsində hesab edək ki, bu proses hadisəsiz baş tutacaq".

Ekspert bildirib ki, əgər İran bizim İsraillə olan əlaqəmizi qısqanırsa, o zaman İranın Ermənistanla olan əlaqələri də ortaya qoyulmalıdır:

"Əgər bizim İsraillə əlaqələrimizin kəsilməsi tələb olunursa, o zaman İrandan da Ermənistanla olan bütün əlaqələrini kəsmək tələb olunmalıdır. Bu da mümkün deyil. Mümkün olmadığı üçün də xarici diplomatiyamız bu məsələni gərək daha öncədən həll edərdi. Hesab edirəm ki, nəyinki hazırkı əlaqələrlə kifayətlənmək lap səfirlik də açılmalıdır. Nə üçün bizim səfirliyimiz İsraildə olmamalıdır?".

**❑ Əli RAİS**

**Son bir neçə ayda mətbuatın barəsində ən çox yazdığı şəxs, heç şübhəsiz ki, hazırda məhkəməsi davam edən MTN generalı Akif Çovdarovdur. Elə gün olmur ki, məhkəmədə ifadə verən zərərçəkmişlər onun barəsində sensasion ittihamlar səsləndirməsin, istintaq onun əməlləri ilə bağlı yeni detalları cəmiyyətə açıqlamasın.**




**“Bir şeyi bilin ki, atam oksigen balonunu, xərəyi evdən özü ilə gətirməyib ki. Adam xəstələnib, vəziyyəti pisləşib deyə bu vəziyyətdə onu məhkəməyə gətirirlər”**

# "Atam deyir, barəmdə pis yazırlar, çox pis..." - Akif Çovdarovun oğlundan yeni açıqlamalar

## Ruslan Çovdarov: “Mənsə deyirəm ki, sanki millət yavaş-yavaş ayılır, fikirlər çevrilir...”; “"Düşünürəm ki, saxlandığı kamerada gizli kameralar da var..."

*Amma bu məlumatlardan ən çox narazı qalan A.Çovdarovun ailə üzvləridir. Xüsusən də oğlu Ruslan Çovdarov sosial şəbəkədəki statusunda zaman-zaman öz etirazını səsləndirir. “Yeni Müsavat” bu narazılıqları səsləndirməsi, eləcə də bizim suallarımıza cavab verməsi üçün bir neçə gün sosial şəbəkə vasitəsilə müsahibə üçün israr etdi.*

*Bir gün məhkəmə, başqa bir gün atası ilə görüş... Söhbətimiz uzansa da, axırıncı dəfə “mən bu gün atama istədiyi kitabları almaq üçün kitab mağazasına gedəcəm, vaxtım yoxdur”, cavabını verdi. Dediyi saatda AVM-lərdən birində yerləşən kitab mağazasına getdik və budur, üz cizgiləri eynən A.Çovdarova bənzəyən gənc Çovdarov kitab seçir. Detektiv kitab bölməsində... Bunun özü də bir başqa söhbətin mövzusudur.*

*Ruslan bəylə bulvardakı çayxanalardan birində oturub, bizi, sizi maraqlandıran bütün suallara cavab tapmağa başladıq.*

***(Əvvəli ötən saylarımızda)***

***- Ananızdan danışaq, mümkünsə. O nə deyir bütün bu olanlara? Evdar xanımdır və hələ mətbuat onunla tanış deyil...***

- Bəli, evdar qadındır. Anam nə deyə bilər? Ailəmizin bütün üzvləri kimi o da baş verənlərə görə çox narahatdır. Olanlara inana bilmir. Nə desin? Sizdən iraq, yoldaşınızın başına belə bir iş gəlsə, nə edə bilərsiz ki? Hə, siz ictimai xanımsız, səsinizi çıxardarsız bəlkə. O, evdardır, onun da o təbiətində yoxdur ki, çıxsın, nəsə desin, etiraz etsin.

***- Atanıza aid bir çox əmlakların sizin və qohumlarınızın adına keçirilməsi iddiası da var. Babanızın sizə bağışladığı mülklər və sair...***

- (etiraz edir) Siz deyirsiz, mətbuat yazır. Belə bir şey yoxdur əslində. Mənim adıma şəxsən bir ev var. Hansı ki, onu dövlət atama verib, atam da onu mənə - tək oğluna hədiyyə edib. Bu da olduqca normaldır. Azərbaycanda atadan oğula hansısa mülkün keçməsi normaldır. Atamın da evi anamın adınadır. Atam heç bir qohumun adına mülk-əmlak keçirməyib, yalan söhbətdir. Bütün qohumlarımızın ev-eşikləri özlərinindir. Hərənin də öz adınadır.

***- Çingiz Baxşıyev adı yəqin ki, sizə tanışdır. Nəqliyyat nazirinin keçmiş müşaviri olan bu adam atanızdan Qalada yerləşən, dəyəri 4 milyon olan torpaq sahəsi alıb. Belə bir iddia da var..***

- Cəfəngiyatdır. Çingiz Baxşıyevin adını mətbuatdan oxumuşam. İndiki məqamda elədir ki, kim nə istəyir deyir, yazır. Buna görə də heç kəs qanun qarşısında cavab vermir. Siz də o yazılanlarla əlaqədar sual verirsiz və bu, yayılır. Harda oldu atamda elə bir torpaq sahəsi ki, onu da 4 milyona satdı və ailəsinin də bundan xəbəri olmadı? Çox pis məqamdır indi. Atama aid olmayan hər şeyi onun adına çıxan, onun üzünə duran insanlar peyda olub və peyda olmaqda da davam edəcək. Onlar iddia edəcək, siz yayacaqsız... Amma camaat da yazıların başlığını oxuyub, içi ilə tanış olmayacaq. Beləcə yanlış rəy yaranmaqda davam edəcək.

**“Ən azından “poqon poqona” hörmət edir. Bu, hüquq-mühafizə orqanı əməkdaşları arasında yazılmamış bir qanundur. Atama qarşı hər hansı kobudluq, hörmətsizlik olduğuna inanmıram”**

***- İndiki məqamda bu məhkəmədən, ümumən atanızla bağlı baş verən proseslərdən gözləntiniz nədir?***

- Mən yenə də deyirəm ki, bu dəqiqə mənim ən böyük narahatçılığım atamın səhhətidir. Özünüz də bilirsiniz ki, bu xəstəliklərlə həbsxananı bir qırağa qoyaq, insan heç azadlıqda da yaşaya bilməz. Mədəsi olmayan, ürəyində problemləri olan adam üçün yaşamaq problem deyilmi? Bu yaxınlarda oxudum. 35 yaşında cavan bir adam gecə yatıb, səhər oyanmayıb. Ürəyindən olub problemi. Bu elə xəstəlikdir ki, buna heç kim proqnoz qoya bilməz. Bu gün görürsüz ki, Akif Çovdarovun adından istifadə edib, gündəmə gəlmək, özünü kiməsə göstərmək, gözə girmək istəyənlər var. Yaxşı bilirsiz ki, var. Ekspert kimi, hüquqşünas, millət vəkili kimi... Biri deyir ki, Akif Çovdarov MTN-də təsadüfi adam olub. Və yaxud da Hacı Məmmədovla eyniləşdirirlər. Gəlin öncə Akif Çovdarovun MTN-də təsadüfi adam olması iddiasından danışaq. Bu adam MTN-də necə təsadüfi adam ola bilər ki, general səviyyəsinə çıxarılsın? Bu, çox mötəbər rütbədir. Akif Çovdarovun rəhbərlik etdiyi 6-cı baş idarənin əsas işlərindən biri də narkotiklərlə mübarizə olub. Yadınızdadır, ya yox, son bir ilə qədər mətbuatda külli miqdarda narkotiklərin saxlanılması, məhv edilməsi ilə bağlı informasiyalar yayılırdı. Bunlar hamısı mənim atamın rəhbərlik etdiyi 6-cı baş idarənin xidmətləri olub. Hətta Rusiyada, Türkiyədə əlaqədar qurumlarla əməkdaşlıq edərək, narkotik tutublar. Arada belə fikirləşirəm ki, hətta atamın tutulmasında, onun barəsində sifarişli yazıların yazılmasında rol oynayanlar həmin o beynəlxalq narkotika mafiyasıdır. Onlar bu gün marağındadır ki, Akif Çovdarov kimi bir adam haqqında yanlış rəy yaransın, o, içəridə daha uzun müddət qalsın. Fikir verin: son bir ildə Azərbaycanda kütləvi miqdarda narkotik vasitələrin saxlanması barədə hər hansı fakt olub? Bu haqda oxumusuz mətbuatda? Akif Çovdarov işlədiyi dövrdə bu işləri görüb. Qarabağ müharibəsində iştirak edib, Qarabağ müharibəsi veteranıdır. Hətta müharibədən sonrakı atəşkəs dövründə də dövlətçiliyimiz üçün işlər görüb. Cənab prezidentimiz də ona “igidliyə görə” orden verib, bilirsiz. Hətta narkotiklərlə mübarizədə Rusiyada Narkotiklərlə Mübarizə İdarəsinin rəhbəri İvanov Azərbaycana gələrək, atama medal da vermişdi.




**“Hətta arada belə fikirləşirəm ki, atamın tutulmasında, onun barəsində sifarişli yazıların yazılmasında rol oynayanlar həmin o beynəlxalq narkotik mafiyasıdır”**

***- Atanızı eyni zamanda Hacı Məmmədovla da eyniləşdirirlər. Hətta Eynulla Fətullayev bizə müsahibəsində demişdi ki, Hacı Məmmədov məhkəmədə özünü daha ləyaqətli aparıb, nəinki Akif Çovdarov.***

- (hirslənir) Dediyim odur ki, Məmmədov bir qəbiristanlıq adam öldürüb, qadın oğurlayıb... Deyirlər ki, ən azından Hacı Məmmədov günahlarını məhkəmədə etiraf edib. Etməlidir də, bu qədər adam öldürüb, əli qana batıb. Həmin adam idi deyən ki, istixanada yeraltı, gizli türməsi var Akif Çovdarovun. İstintaq orqanları gedib axtarış keçirdilər. Heç bir gizli həbsxana çıxmadı, adi istixana olduğunun şahidi oldular. Hətta jurnalistlər də gedib axtardılar, sonda 3-4 yeşik pomidor götürüb çıxıb getdilər. Yəni demək istəyirəm ki, bu, bir adamının uydurması, fantaziyasıdır. Sonra yazırlar ki, Akif Çovdarov məhkəməyə xərəklə gətirilir, oksigen balonu ilə gəzir. Bir şeyi bilin ki, atam oksigen balonunu, xərəyi evdən özü gətirməyib ki. Adam xəstələnib, vəziyyəti pisləşib deyə bu vəziyyətdə onu gətirirlər. Aclıq edir bu adam. Mədəsi yoxdur onun. Bunu başa düşmək çətindir? Belə müqayisə aparmaq olar? Səhhəti pisləşən adamı necə gətirməlilər məhkəməyə? Təbii ki, xərəkdə.

***- Özü barəsində yazılanlardan xəbərdardır?***

- Hardan xəbərdar olsun? Qəzet oxuyur bəyəm? Ona qəzet verirlər ki? Vəkilləri bəlkə deyir, bəlkə də yox, bilmirəm...

***- Özünüz dünən görüşdüz onunla. Siz nə dediz bu yazılanlar barədə? Onun reaksiyası necə oldu? Bizə bu haqda danışın...***

- Heç nə demir. Sadəcə, onu deyir ki, məndən çox pis yazırlar, çox. Amma mən də deyirəm ki, ay ata, əvvəl pis yazırdılar, amma indi millət elə bil ki, ayılır. Fikirlər yavaş-yavaş çevrilir. İnsanlar da anlayır ki, bir insan haqda bu qədər pis yazılırsa, demək ki, ortada başqa söhbət var. Necə ola bilər ki, bir insan bu qədər pis olsun, bu qədər pis əməl etsin? Xalqın gözü tərəzidir, xalq pisi yaxşıdan ayıra bilir.

***- Sizə tapşırığı nə oldu?***

- Nə tapşırığı olasıdı e? Xəstə canını zorla hərləyir adam. Mən ancaq onun səhhəti ilə bağlı narahatam.

***- İçəridə ona münasibət necədir? Həbs olunduğu ilk dövrlərdə barəsində oxuduğum bir xəbər vardı ki, onu maşına mindirəndə kobud davranıblar, qolunu qandallayıblar və o, buna etiraz edərək deyib ki, “mən generalam, bunu unutmayın”...***

- Vallah, o da jurnalistlərin fantaziyasıdır. Elə bir şey olmayıb. Ən azından “poqon” “poqon”a hörmət edir. Bu, hüquq mühafizə orqanı əməkdaşları arasında yazılmamış bir qanundur. Atama qarşı hər hansı kobudluq, hörmətsizlik olduğuna inanmıram. Düzdür, xəstəlikləri var bu adamın. Bunu da söhbət boyunca mən sizə detalları ilə izah etdim. Təcili Yardım çağırsa da, gətirməyiblər. Amma bu da sistemli xarakter almayıb. Ümumən isə istintaq təcridxanasının rəhbərliyindən hər hansı şikayətimiz yoxdur.

***- Kiminlə qalır? Kamera yoldaşı kimdir?***

- Bir nəfər var...

***- Ehtimal edilir ki, kamera yoldaşı da ora təsadüfən salınmayıb və ən pis ehtimallar barədə yazılır...***

- Mən hətta fikirləşirəm ki, saxlandığı kamerada gizli kameralar da var. Əsas məqsəd də odur ki, atama qarşı hər hansı bir sui-qəsd və sair olmasın. Onu tam nəzarətdə saxladıqlarına əminəm.

***- Narahatçılığınız varmı ki, ona qarşı hansısa sui-qəsd edilə bilər?***

*(Davamı növbəti sayımızda)*

**Sevinc TELMANQIZI**

**“Həmin adam deyirdi ki, Akif Çovdarovun istixanada yeraltı, gizli türməsi var. İstintaq orqanları gedib axtarış keçirdilər. Heç bir gizli həbsxana çıxmadı, adi istixana olduğunun şahidi oldular. Hətta jurnalistlər də gedib axtardılar, sonda 3-4 yeşik pomidor götürüb çıxıb getdilər”**

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016



# Zəncani ipdə, bizimkilər cipdə

Xalid KAZIMLI

**İran Ali Məhkəməsi 14 milyard dollarlıq sərvətin yiyəsi olan Babək Zəncaninin haqqında çıxarılmış ölüm hökmünü təsdiqləyib və əgər möcüzə baş verməsə, adamı qaldırıcı kranın altına aparıb boynuna ip keçirəcək, havaya qaldıracaqlar.**

Orası İran, orda qaldırıcı kranın altına aparılanlarla bağlı möcüzələr tez-tez baş vermir.

Zəncaninin günahı odur ki, dövlətin, xalqın milyardlarını mənimsəyib, onlardan öz şəxsi varidatının artması üçün yararlanıb. İlişəndən sonra, o, 2.8 milyard dollarlıq borcunu qaytararaq boynunu kəndirdən qurtarmaq istəsə də, buna nail ola bilməyib.

İranda bu cür cinayətlər törədənlər bağışlanmır.

Çində də İranda olduğu kimi edirlər, dövlətə, xalqa qarşı külli miqdarda maliyyə fırıldağı gələn, zərər vuran şəxslər edam olunur.

Ancaq elə ölkələr var ki, bu kimi cinayətlərə çox dözümlü yanaşırlar, canini edam etmirlər, uzağı həbs cəzası kəsirlər və 3-5 ildən sonra əfv edib azadlığa buraxırlar.

Elə ölkələr də var ki, dövlətin büdcəsini, xalqın malını əmin-arxayın şəkildə talayan, korrupsiyanın kitabını yazan minlərlə adamdan yalnız bir qrupunu (15-20 nəfər) həbs edir, cəzalandırırlar.

Hamınız bilirsiniz, bu günlərdə ölkəmizdə gedən qalmaqallı məhkəmə proseslərində ləğv edilmiş MTN-nin və adı qismən dəyişdirilmiş Rabitə Nazirliyinin sabiq rəhbərlərinin bir qismi mühakimə olunur. Bundan əvvəl Beynəlxalq Bankın rəhbərliyi talançılıqda mühakimə olunmuşdu.

Onlar da eynilə Zəncani kimi ölkənin neft pullarının mənimsənilməsində, maliyyə fırıldaqlarında ittiham olunurlar. Məhkəmədə yer alan etiraf dolu çıxışlarda sabiq məmurların milyonları necə pay-püşt etdikləri sadalanır. Ancaq yenə də korrupsiya zəncirinin halqaları tam şəkildə ortaya çıxmır.

İfadələrdən belə anlaşılır ki, "korrupsiya çeteləri"nə rəhbərliyi nazirlər həyata keçirib, ancaq mühakimə olunanlar 3-cü, 4-cü dərəcəli şəxslərdir, birincilərin adı tez-tez çəkilsə də, onlara dəyib-dolaşan yoxdur. O mənada ki, bu şəxslər müttəhimlər qəfəsində deyillər.

Belə görünür ki, onların divanı, sorğu-sualı tamam başqa auditoriyalarda gedib (və ya gedir), cəzaları da tamam başqa zalda kəsiləcək (və ya kəsilib).

Əslində, bu, bir Azərbaycan fenomenidir - mütəşəkkil cinayət qruplaşmasının üzvlərini açıq və toplu halda, rəhbərlərini isə ayrıca və qeyri-leqal mühakimə etmək.

İstəsək, bu mühakimə üslubunda humanizm və mərhəmət ünsürləri tapa bilərik. Baxın, Babək Zəncaninin dövlətdən oğurladığı 2,8 milyard dolları qaytararaq edamdan qurtarmaq arzusu reallaşmadısa, sabiq rabitə naziri Əli Abbasov dövlət büdcəsinə ödəmələr edərək azadlıqda qaldı. Eləcə də o biri korrupsionerlər öz bahalı ciplərində arın-arxayın gəzməkdədirlər.

Heç Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədovun da MTN generalı Akif Çovdarova ödədiyi 3 milyon dolların mənbəyi barədə araşdırma aparan yoxdur. Araşdırsalar, əlbəttə, o pulların maaş və qonorar hesabına birikmədiyi ortaya çıxacaq.

Söhbət korrupsiya və talançılığa qarşı aparılan mübarizənin yarımçıqlığından, səthiliyindən, epizodikliyindən gedir.

Hamımız bilirik ki, dövlət strukturlarında çalışanlara "paket maaş" verilməsi halları təkcə Rabitə Nazirliyində olmayıb, demək olar ki, bütün nazirlik və komitələr öz əməkdaşlarına bu cür aylıq mükafatlar paylayıblar. Bu yolla dövlətin, xalqın milyardları talanıb. Ancaq hamının qol qoyduğu, yol verdiyi cinayət əməlinə görə yalnız rabitəçilər cavab verir.

İndi bu yazıdan elə çıxmasın ki, müəllif dövlət büdcəsinin talanmasında iştirak edən hər kəsin (paket verənlərdən alanlara qədər) cəzalandırılmasını istəyir. Xeyr. Bu, çox qəddarcasına olardı, Stalin repressiyasına oxşayardı.

Bununla belə, dövlət büdcəsini talayaraq, hazırkı böhran dönəmində xalqı səfalətlə üz-üzə qoyan iri korrupsionerlərin hamısından haqq-hesab tələb edilməlidir.

Dövlət o vaxt güclü olur ki, iki korrpsioner, iki cinayətkar arasında ayrı-seçkilik etmir, ikisini də cəzalandırır. Yoxsa "tutulmayan oğru xandan, bəydən doğru" hesab ediləcəksə, ölkədə nə ədalət bərqərar olacaq, nə xalqın güzəranı yaxşılaşacaq, nə də xalqı soymaq niyyətində olanların canına tormozlayıcı xof düşəcək.

# Ölkə iqtisadiyyatında ən ağır il - 2016, yoxsa 2017?

## Ekspertlər gələn ilin daha çətin olacağını proqnoz edirlər, ağırlığın yükünü isə vətəndaşlar və sahibkarlar çəkəcək…

**Başa çatan 2016-cı il ölkə iqtisadiyyatı üçün ciddi problemlərlə yadda qaldı. Prezident İlham Əliyev də iki gün əvvəl bu barədə danışıb. O, bu ilin iqtisadiyyatımız üçün ən ağır il olduğunu vurğulayıb. "Ölkəmizin hərtərəfli inkişafı davam edir. Son illərlə müqayisədə 2016-cı il ölkə iqtisadiyyatı üçün obyektiv səbəblər üzündən ən ağır il oldu. Buna baxmayaraq, biz çox ciddi tədbirlər görərək dünya böhranının mənfi fəsadlarını azaltmağa çalışmışıq və buna nail ola bilmişik", - deyə İlham Əliyev bildirib.**

Lakin ölkə başçısı gələcəyə nikbin baxmağın vacibliyini də vurğulayıb: "Biz ili yaxşı göstəricilərlə başa vururuq. Qeyri-neft sənayesinin, kənd təsərrüfatının artımı, əlbəttə ki, görülmüş işlərin nəticəsidir. Biz valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox vacib məsələdir. Çünki neftlə zəngin olan ölkələrin əksəriyyətində valyuta ehtiyatları tükənir, ya da azalır. Biz isə qoruyuruq, çünki bu, dövlətimiz, xalqımız üçün lazımdır. Bu, bizə əminlik və imkan verir ki, gələcəyə nikbinliklə baxaq".

Dövlət başçısı bildirib ki, sosial məsələlərin həlli bundan sonra da prioritet olacaq: "Neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, Azərbaycanda belə gözəl tibb ocaqları yaradılır. Ehtiyac meyarı artırılacaq, digər sosial proqramlar gələn il də artıqlaması ilə icra ediləcək".

Ekspertlər isə hesab edirlər ki, 2017-ci il də asan olmayacaq. Əksinə, 2017-ci ilin daha ağır və çətin olacağı ehtimalları böyükdür. İqtisadçı ekspert Natiq Cəfərli qeyd edib ki, dövlət büdcəsinin parametrləri də gələn ilin ağır olacağını söyləməyə əsas verir: "2017-ci ilin büdcəsinin ilkin parametrləri açıqlanıb. Yəni bu, dollar ekvivalentində son on illərin ən kiçik büdcəsidir. Büdcə parametrlərində bir çox kəsintilərin olduğunu da indidən söyləmək mümkündür. Yəni təmir-tikinti işlərində, böyük infrastruktur layihələrində kəsintilərin olması ehtimalı var. Bu da iş yerlərinin azalması, gəlirlərin azalması ilə müşahidə olunur. Ancaq elə büdcə parametrlərinə baxdıqda, görürük ki, 2017-ci il 2016-dan asan olmayacaq. Yeganə ümid neft qiymətlərinədir. Əgər 2017-ci ildə neft fantastik dərəcədə bahalaşsa, ciddi bahalaşma müşahidə olunsa, problemlər az ola, vəziyyət düzələ bilər. Bunun da ehtimalı azdır, çox aşağıdır. Heç olmasa, neft 65-70 dollara qədər artsa, o zaman ölkə iqtisadiyyatı nəfəs ala bilər, manatın sabitləşməsi baş verə bilər, ümumiyyətlə, bir iqtisadi canlanma müşahidə edə bilərik. Yenə təəssüf edək ki, 2017-ci il də neftdən asılı olacaq. Əgər belə bir şey baş verməsə, neftin qiymətləri 50 dollar civarında qalsa, 2017-ci il 2016-dan heç də asan il olmayacaq. Neftin qiymətinin enmə ehtimalları da var. Mən hətta düşünürəm ki, gələn il daha çətin bir il olacaq. Vətəndaşlar üçün daha çətin bir il olacaq. Çünki xərcləri artacaq. Həm kommunal xərclərin artmasının fonunda, həm qiymət artımı fonunda, həm manatın devalvasiyası fonunda 2017-ci ildə vətəndaşları daha ağır bir il gözləyir".



Ekspert Qubad İbadoğlu isə bildirib ki, 2016-cı il ağır il olmaqla yanaşı, həm də imkanlar ili olub: "Təəssüf edirəm ki, 2016-cı ilin yaratdığı imkanlardan Azərbaycanın mövcud hakimiyyəti bəhrələnə bilmədi. Bizim gözləntilərimiz ondan ibarət idi ki, 2016-cı ildə başlayan tənəzzül ilin sonunda pozitiv yekunlarla başa çatacaq. Düşünürdük ki, ilin sonunda artıq bir sıra sahələrdə əldə etdiyimiz prioritet nəticələr 2017-ci il üçün də normal vəziyyət yaradacaq. Amma təəssüflər olsun ki, 2016-cı ilin ortalarında qoruyub saxladığımız sənaye istehsalındakı artım da tənəzzüllə əvəz olundu. Bu, o deməkdir ki, sektorlar arasında 2016-cı ilin əsas aparıcı rola malik olan sənaye sektorundakı tənəzzül 2017-ci il üçün o qədər də yaxşı perspektiv vəd etmir. Bu baxımdan, 2017-ci ili dəyərləndirərkən vəziyyətin yaxşı olmayacağını bildirmək istəyirəm. Düşünürəm ki, 2017-ci il 2016-cı illə müqayisədə daha ağır il olacaq. Bu ağırlığın yükünü istehlakçılar və sahibkarlar çəkəcək. Əgər 2016-cı ildə istehlakçıların və sahibkarların üzərinə düşən yük ümumi tənəzzülün yaratdığı xərcin bir hissəsini təşkil edirdisə, 2017-ci ildə əsas hissəsini təşkil edəcək. 2016-cı ildən gözləntilərimiz islahatlara başlamaq idi. Düşünürdük ki, 2016-cı ilin əvvəlində start götürülmüş kifayət qədər əhəmiyyətli qərarlar ilin sonunda ilkin nəticələrini verəcək. Yanvarda qeyri-neft sektorunun inkişafı ilə bağlı, sahibkarlığın təşviqi ilə bağlı, martda isə strateji yol xəritəsinin hazırlanması ilə bağlı çox önəmli sənədlər imzalandı. Təəssüflər olsun ki, strateji yol xəritəsinin hazırlanması üçün verilən 6 ay başa çatsa da, bu iş başa çatdırılmadı. Hələ də yol xəritəsi dövlət başçısına təqdim olunmayıb, qəbul edilərək reallaşdırılmayıb. Ən böyük imkan ili idi, biz bunu dəyərləndirə bilmədik. Hesab edirdik ki, 2016-cı ildə başlanan işlərin nəticələrini növbəti ildə görəcəyik. Amma 2016-cı il başa çatır, hələ də ölkədə islahat görüntüsü yaradılır. Amma heç bir islahatdan söhbət getmir. O baxımdan, 2017-ci ili inflyasiya ili kimi gözləyirəm. Düşünürəm ki, 2017-ci ildə inflyasiya əvvəlki ildən daha çox olacaq. 2017-ci ildə Azərbaycan vətəndaşının həyat səviyyəsi daha pis, dolanışığı daha çətin olacaq. 2017-ci ildə ölkədə işsizlərin sayı, bağlanan iş yerlərinin sayı çoxalacaq. Bu baxımdan da, 2017-ci 2016-cı illə müqayisədə pis sosial nəticələrin özündə xarakterizə edən bir il kimi səciyyə oluna bilər. Gələn ilin ilk dörd ayını mən sınaq ayı adlandırıram. Söhbət may ayına qədər olan dövrdən gedir".

❑ Röya RƏFİYEVA

# Elektrik enerjisinə necə qənaət etməli? - İqtisadçı alimdən tövsiyələr…

## İqtisadçı-alim Qubad İbadoğlu elektrik enerjisinə necə qənaət etməklə bağlı tövsiyələr verib. Onları təqdim edirik:

**"X İşıqlanmada 100, 75, 60 və 40 vattlıq közərmə lampalarını 25 vatt və daha aşağı vattlıq LED (diod) lampaları ilə əvəz edin. Bilin ki, lampaların dəyişdirilməsinə bir dəfə vəsait qoymaqla sərf olunan elektrik enerjisinin 80 faizə qədər qənaət etmək olar. Mütəxəssislərin fikrincə, enerjiyə qənaət edən və ekoloji baxımdan təhlükəsiz olan müasir işıqlandırma vasitələrinin tətbiqi və istifadəsi zərərli maddələrin, o cümlədən karbon-dioksid qazı tullantılarının faizinin azalmasına gətirib çıxarır. Deməli, bu dəyişiklik həm ailə büdcəsi, həm də ailə üzvlərinin saglamlığı üçün sərfəli və faydalıdır.**



X Dəhlizlərdə, eyvanlarda səsə həssas işıqlandırma vasitələrindən istifadəyə üstünlük verin.

X Enerji yığan akumulyatorlu mobil telefonları və digər elektrik cihazlarını doldurarkən onları uzun müddət ştepseldən asılı vəziyyətdə buraxmayın, şəbəkədən ayrılma zamanı isə kabeli birbaşa ştepseldən çıxarın. Mobil telefonlarınızı USB kabelləri vasitəsilə bilgisayarlardan doldurmağa üstünlük verin. Enerji mənbəsinə qoşulan bilgisayarda işləyərkən onu müəyyən müddətdən sonra ştepseldən ayırın. Batareya enerjisini qorumaq üçün telefonlarınızın Power saver və Sleep mode xüsusiyyətlərindən də istifadə edin.

X Məişətdə işlədilən enerji avadanlıqlarının iş rejimlərini yaxşılaşdırmaq məqsədilə enerjiyə qənaət edən A+++, A++, A+, ECO + enerji sinfinə aid edilən cihazların alınmasına üstünlük verin. Məişətdə işlədilən enerji avadanlıqları (paltaryuyan, paltarqurudan, qabyuyan və s.) normadan aşağı yükləməklə işlətməyin. Onları işlədərkən təlimatla tanış olun və enerji sərfi aşağı olan rejimlərdən istifadə edin. Elektroçaydandan istifadə edərkən onu lazım olan qədər su doldurub qaynadın. Artıq suyun qaynaması da çox enerji aparır.

X Bilgisayarda işləyərkən, kitab oxuyarkən, yazı yazarkən otaqda bütün işıqlandırma sistemindən istifadə etməyin, imkan yaranında kənar işıqlandırma lampalarını söndürüb stolüstü elektrik işıqlandırma lampalarına üstünlük verin.

X Müstəqil enerji mənbələri yaradan və günəş enerjisi ilə işləyən elektrik avadanlıqlarının alınmasına üstünlük verin".

❑ Musavat.com

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

**“Baxış bucağı”**

**Ötən həftə Milli Məclisin komitələri ilə birgə müzakirələrə çıxarılan 2017-ci ilin büdcə zərfi sabah parlamentin plenar iclasına təqdim olunacaq. Ancaq çoxlarını maraqlandıran bir məsələ var: hökumət komitə iclaslarında səslənən təklifləri, tənqidi fikirləri son variantda nəzərə alacaqmı? BAXCP sədri, deputat Qüdrət Həsənquliyevlə budəfəki söhbətimiz də büdcə müzakirələri barədədir.**

# “İntuisiyam deyir ki, nəsə xoşagəlməz bir proses başladılıb”

## Qüdrət Həsənquliyev: “Prezidentin bəzi tapşırıq və qərarlarının zamanında icra olunmaması göstərir ki, hansısa təxribat var”

***- Qüdrət bəy, Milli Məclisdəki müzakirələrdə sizin də büdcə layihəsi ilə bağlı tənqidi fikirlərinizi eşitdik, bir sıra təklifləriniz oldu. Necə hesab edirsiniz, hökumət ona ünvanlı çağırışlara müsbət mənada qarşılıq verəcəkmi, yoxsa plenar iclasa elə əvvəlki layihə təqdim olunacaq?***

- Keçən il qaçqınların və məcburi köçkünlərin mənzil tikintisi ilə bağlı vəsait azaldılmışdı. Hər halda mənim çıxışımdan sonra, sağ olsunlar ki, bunu nəzərə aldılar və 2014-cü il, yəni 350 milyon manat səviyyəsində saxladılar. Sözün doğrusu, mən bilmirəm, o vəsaitlə bağlı icra vəziyyəti necədir, yəqin, bunu gələn il büdcənin icrasını müzakirə edəndə biləcəyik. Amma qaçqın və məcburi köçkünlər 25 il, hətta ondan çox müddətdə öz yurd-yuvalarını itiriblər, onların böyük qismi hələ də acınacaqlı vəziyyətə yaşayır. Biz xalq olaraq, vətəndaş olaraq buna dözməməliyik. Prezident bu ilin aprelində Sivilizasiyalararası Dialoq Forumunda çıxış edərək bildirdi ki, Azərbaycan indiyə qədər 90 qəsəbə tikib və hər il təqribən 20 min insan mənzillə təmin olunur, amma yenə də bu, yetərli deyil. O insanların böyük bir hissəsi yenə də öz mənzil şəraitinin nə vaxt yaxşılaşdırılacağını gözləyir. Yəni prezidentin özü də bu barədə demişdi. Bütün bunlardan sonra bu sahəyə mütləq xüsusi diqqət ayırmalıdır. Biz çalışmalıyıq ki, nəhayət, qısa bir müddət ərzində qaçqınların mənzil problemini həll edib başa çatdıraq. 2017-ci ilin dövlət büdcəsində İslam Oyunlarına və “Formula-1" yarışlarına 317 milyon 300 min manat, idman obyektlərinin tikintisinə 330 milyon 300 min manat pul ayrıldığı halda, qaçqınların və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına cəmi 90 milyon manat vəsait ayrılıb. Parlamentdəki çıxışımda da dedim ki, Azərbaycan dövləti və xalqı üçün prioritet 330 milyon 300 min manatlıq yeni idman obyektlərinin tikintisi yox, 9 min qəzalı vəziyyətdə yaşayan ailənin təcili mənzillə təmin olunmasıdır. Bu gün 40-45 min insan risk altında yaşayır. Necə ki, Füzulidən olan bir qaçqın ailəsi bu yaxınlarda yanğında məhv oldu. O binalarda elektrik naqilləri hörümçək toruna bənzəyir, bina hər an insanların başına uça bilər.

***- Dediyiniz kimi, prezident üçün bu problemlərin həlli xüsusi əhəmiyyət kəsb edir. Həmçinin dövlət başçısı sahibkarlığın inkişafına önəm verir, bununla bağlı müvafiq sərəncamlar imzalayıb. Amma məlum oldu ki, 2017-ci ilin dövlət büdcəsində sahibkarlığın inkişafına bir manat da ayrılmayıb. Üstəlik, Tarif Şurası sahibkarlığa da böyük zərbə olan qiymət artımına gedir, narazılıq yaradır. Bu ziddiyyətlər nədən doğur?***

- Sözün doğrusu, mən düşünürəm ki, hakimiyyət daxilində hansısa gözəgörünməyən, ola bilsin, kənar təsirlərin də nəticəsində çox vaxt qeyri-populyar, nəinki vəziyyətin düzəlməsinə xidmət etməyən, əksinə, vəziyyəti ağırlaşdıracaq istiqamətdə qərarlar qəbul edirlər və mən burada hansısa təxribatın da olacağını istisna etmirəm. Burada xaricdən də təsir ola bilər, daxildəki, elə hökumətin öz içindəki müəyyən qüvvələrlə birlikdə düşünülmüş bir addım da ola bilər. Əlimdə konkret faktlar yoxdur, amma ehtimallar və intuisiyam mənə deyir ki, nəsə xoşagəlməz bir proses başladılıb. Prezidentin bəzi tapşırıq və qərarlarının zamanında icra olunmaması bunu göstərir ki, hansısa bir təxribat var. Buna görə də ölkənin siyasi rəhbərliyi, dövlətin təhlükəsizliyinə cavabdeh olan şəxslər bu məsələlərin üzərində ciddi düşünməli və təhlil etməlidirlər.

***- Referendumdan sonra böyük islahatlara gediləcəyi ilə bağlı gözləntilər var idi. Mümkündürmü ki, kimlərsə bu kimi addımlarla islahatların reallaşmasını əngəlləməyə çalışır?***

- Deyək ki, prezident özəlləşdirmənin sürətləndirilməsi ilə bağlı xüsusi fərman imzalamışdı. Amma Nazirlər Kabineti özəlləşdirmə ilə bağlı konkret addımlar atmalı idi. Az qala bir ildən artıq vaxt keçir, 1-2 kiçik müəssisədən başqa hələlik heç bir iri müəssisə özəlləşdirilməyə çıxarılmayıb. Yəni bacardıqları qədər bu prosesi yubadırlar. İkincisi, bank sektorunda yaranmış vəziyyətin dəyişdirilməsi istiqamətində də qəbul olunmuş qərarlar yanlışdır. Ölkənin valyuta ehtiyatları manatın kursunun saxlanmasına sərf olunur ki, bu da ölkə iqtisadiyyatına çox ciddi zərbə vurur. Mən çıxışımda da dedim, manatın kursu sabitləşməyənədək Azərbaycana heç bir iş adamı ciddi investisiya yatırmayacaq - nə daxili, nə də xarici investorlar. Ona görə də manat nəhayət ki, üzüb bir məntəqəyə gəlib çatmalıdır. Bunu nə qədər uzadacaqlarsa, deməli, iqtisadiyyata vəsait qoyuluşu olmayacaq. Əgər yeni zavod, fabrik tikməyəcəksənsə, yeni emal müəssisəsi yaratmayacaqsansa, qeyri-neft sektorunu necə inkişaf etdirəcəksən? Yaxud torpaqları münbitləşdirmək üçün vəsaitin yoxdursa, keyfiyyətli toxumun, texnikanın, gübrənin alınması imkanlarından məhrumsansa, kənd təsərrüfatını necə inkişaf etdirəcəksən? Bunların hamısı sonda gəlib maliyyətə bağlanır. Ölkənin milli valyutası sabitləşməyibsə, ora heç kim ciddi vəsait qoymayacaq.

***- Belə çıxır, gələn il bundan da ağır vəziyyət yarana bilər?***

- Bunu tək mən demirəm. Maliyyə naziri Samir Şərifov, hökumətin digər üzvləri, nazirlər də deyir ki, bəli, gələn il daha pis, daha ağır olacaq. Deyək ki, 2017-ci ili keçirdik, bəs, qarantiya hardadır ki, 2018-ci il yaxşı olacaq? Siz 2017-ci ildə vəziyyətin yaxşılaşması üçün hansı işləri görəcəksiniz, söhbət bundan gedir.

***- Qiymət artımı və digər prosesləri müxalifətin, sadəcə, kənardan müşahidə etməsi də normal görünmür. Etirazlar bir tərəfə, hansısa təşəbbüslər, təkliflər də yox dərəcəsindədir. Sizcə, bu, normaldırmı?***

- Əlbəttə, müxalifət etiraz etməlidir və biz də qiymət artımına, islahatların ləngidilməsinə etiraz edirik. Amma müxalifət də öz məsuliyyətini dərk etməlidir ki, bu islahatların həyata keçirilməsi üçün mütləq ölkədə siyasi sabitlik lazımdır. Əgər insanlar küçələrə çağırılırsa və bu da sonra elə bir prosesə çevrilir ki, ölkə yenə də xaosa sürüklənir, əlbəttə, buna yol vermək olmaz. Etirazın bildirilməsi o formada olmalıdır ki, iqtidarı islahatları sürətləndirməyə stimullaşdırsın, yoxsa cəmiyyətdə bir az da qarşıdurmanı gücləndirməyə xidmət etməsin, ölkədə yaranmaqda olan sosial narazılıq ki, var, o narazı insanların idarəolunmayan bir prosesə qoşulmasına yol verilməsin. Yəni ölkədə sabitliyin qorunmasında müxalifətin də iqtidar qədər məsuliyyəti var. Müxalifətin də dediklərini iqtidar qulaqardına vurmamalıdır. Bizim təkliflər ciddi şəkildə öyrənilməli, müzakirə olunmalıdır. Mütləq və mütləq islahatlar genişləndirilməlidir. Birinci devalvasiyadan iki il keçir... Düzdür, bəzi dövlət orqanlarında şəffaflığın səviyyəsi xeyli dərəcədə artırılıb, neqativ hallar tam aradan qaldırılıb, ASAN Xidmətin fəaliyyəti xeyli dərəcədə genişləndirilib. Ancaq bu, cəmiyyətdəki vəziyyəti köklü surətdə dəyişmək üçün yetərli deyil. Ən azından iki nazirliklə bağlı gedən cinayət işinin istintaqı və məhkəmə istintaqı göstərir ki, doğrudan da, orda həm maliyyə nəzarəti yüksək səviyyədə təmin olunmayıb, həm də idarəetmədə ciddi qanun pozuntuları mövcuddur.

***- Eyni zamanda, hakim komandada ciddi kadr dəyişikliyinə də gedilmədi. Bu komanda ilə islahatların aparılmasının mümkünsüzlüyü barədə də çox deyilib...***

- Əlbəttə ki, dəyişikliklər etmək lazımdır. Biz bunu hər zaman deyirik ki, komanda mütləq yenilənməlidir. Birincisi, komanda yenilənəndə insanlar yeni təyin olunmuş şəxsə müəyyən ümidlər bağlayır, yeniliklər gözləyirlər. Təzə gələn adam həqiqətən də çalışır ki, nə isə bir yeniliklər eləsin. Ola bilər ki, təzə təyin olunmuş şəxs əvvəlkindən daha uğursuz ola bilər, o halda onu da dəyişmək lazımdır. Təzə təyin olunub deyə, oturub gözləmək lazım deyil ki, azı 5 il işləsin. Ölkədə çevik kadr siyasəti aparılmalıdır. Həm də verilmiş göstərişlərin tez yerinə yetirilməsi təmin olunmalıdır. İndi prezident göstərişlər verir, amma biz görürük ki, onların icrası xeyli yubanır.

***- Qüdrət bəy, bəlkə də vitse-prezidentlər təyin olunsa, bu, sürəti xeyli artırardı. Razılaşırsınızmı?***

- Əslində yeni konstitusiya qəbul olunandan sonra vitse-prezidentlərlə bağlı təyinat olmalı idi. Amma prezident 6 ay vaxt verdi ki, vitse-prezidentlərin statusunu müəyyənləşdirən yeni qanun qəbul olunsun və bundan sonra təyinat olsun. Bu qanun layihəsinin hazırlanmasına da, deyəsən, iki ay vaxt qoyulmuşdu. Dekabr ayında bu layihə parlamentin müzakirəsinə çıxarılsa, yeni ilin əvvəllərində artıq bu təyinatlar ola bilər. İnsanların bu institutla əlaqədar olaraq müəyyən gözləntiləri var. Amma sözün doğrusu, düşünmürəm ki, təkcə vitse-prezidentlərin təyin olunması vəziyyəti ciddi şəkildə dəyişə bilər. Müəyyən müsbət dəyişikliklər ola bilər, amma ciddi dəyişikliklər gözləmirəm. Ölkədə bazar iqtisadiyyatına keçid həyata keçilməlidir. Azərbaycan iqtisadiyyatı hibrid iqtisadiyyatdır. Yəni sosialist təsərrüfat sistemi ilə bazar iqtisadiyyatının bir anormal qarışığı, izdivacıdır. Nazirlər Kabinetinin 44 üzvü var. Bu rəqəm minimum iki dəfə azaldılmalıdır. Məmurların sayı minimum 30 faiz azaldılmalıdır. Qənaət olunmuş vəsait də o biri məmurların əmək haqqının artırılmasına sərf olunmalıdır ki, onların layiqli həyatını təmin etmək mümkün olsun. Yoxsa aldığı maaşla dolana bilməyəndə məmur mütləq qanun pozuntusuna yol verəcək, qulluq mövqeyindən istifadə etməklə həyatını yaxşılaşdırmaq barədə düşünəcək və bu zaman da neqativ hallar, sui-istifadə halları baş verir. Mütləq özəlləşdirməyə getmək lazımdır. Azərbaycanda bu qədər dövlət universitetləri ola bilməz. AMEA da BDU kimi bir universitetə çevrilməli, Akademiyanın institutları da ayrıca fakültələr olmalıdır. Ancaq bu qurum da özəlləşdirilməlidir. Bizim akademiklər təkcə elmi araşdırmalarla yox, həm də tədrislə məşğul olmalı və həm də qazanc götürməlidirlər. Dünyada tək keçmiş sovet respublikalarından başqa heç yerdə elmlər akademiyası deyilən təsisatlar yoxdur. Bu da dövlətin üzərində bir yükdür. Həmçinin səhiyyə obyektləri özəlləşdirilməlidir. Bunlar özəlləşdirilməlidir ki, onlar vergi ödəsinlər. Kasıbların övladları da təhsil kreditləri hesabına təhsil almalıdır. Həmçinin icbari tibbi sığorta tətbiq olunmalı, məktəb tikintisinə geniş meydan verilməli, ikinövbəli təhsil aradan qaldırılmalıdır. İş adamlarına vergi güzəştləri tətbiq olunsa, qat-qat ucuz qiymətə məktəblər tikilə bilər. İdman komplekslərinin özünü özəlləşdirmək lazımdır. Rayonlarda onlar baxımsız vəziyyətdə qalıb. Bu işlər həyata keçirilsə, biz xeyli dərəcədə irəli gedə bilərik və xaricdən də investisiya cəlb olunmasına nail olarıq. Bundan əlavə, müəllimlərin, həkimlərin maaşı artırılmalıdır. Həmçinin bizim ön cəbhədə xidmət edən zabitlə paytaxtdakı zabitin əmək haqqı eyni olmamalıdır. Həyatlarına risk etdikləri üçün onların maaşı daha yüksək olmalıdır. Parlamentdəki müzakirələrdə dediyim kimi, həm də devalvasiya nəzərə alınmaqla hərbçilərin maaşının artırılmasına da çox ciddi ehtiyac var.



**“Ölkədə sabitliyin qorunmasında müxalifətin də iqtidar qədər məsuliyyəti var”**

**“Düşünmürəm ki, təkcə vitse-prezidentlərin təyin olunması vəziyyəti ciddi şəkildə dəyişə bilər”**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016



# Ay səni dovşan yesin...

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud, vəhşi təbiətin qoynunda

**Hardasa iki həftə qabaq bizim ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev xaricdə bir tədbirdə çıxışı zamanı Azərbaycanda təbiətin qorunmasına dövlət tərəfindən yüksək qayğı göstərildiyini danışmış, belə demişdi: "Bu gün Avropada vəhşi təbiət qalmayıb. Vəhşi təbiət görmək istəyirsinizsə Azərbaycana gəlin". Eynən Süleyman Rüstəmin Sovet dövründə məşhur olan "Cənnət görmək istəyən, Azərbaycana gəlsin" misrasının davamı kimi bir cümlə alınmışdı.**

Firdovsi müəllim tamamilə haqlı idi. Bundan az sonra Tarif Şurası qiymətləri qaldırdı. Əminəm ki, qiymətlərin qalxması təbiətimizin vəhşiliyinə böyük töhfələr verəcəkdir. Hərçənd, elə indi də durum pis deyildir.

Xəbərləri azacıq izləyəndə bunu aydın görmək mümkündür. Təbiətimiz uşaqdan böyüyə, tumurcuqdan kökə, nə bilim, məktəbdən universitetə qədər hər sferada öz ilkin gözəlliyini saxlamaqdadır. Sanki burada heç təkamül də olmayıbdır, elə milyon illər önçəki durumdur. Bir gün bulvarda gəzərkən Hökumət Evinin tinindən tiranozavr çıxıb Bakı buxtasının mazutlu-nəcisli suyuna kəllə vursa təəccüblənmərəm.

"Körpələr evi, uşaq bağçasının müdiri Zəriş xanım tərbiyəçi Pəriş xanımı uşaqların gözü qabağında döyərək saçından tutub sürümüşdür". Bəh-bəh. Gör necə gözəl xəbərdir! Əminliklə deyə bilərik ki, o talada məskunlaşan körpələr böyüyəndə hər biri hüquq-mühafizə orqanlarımızda uğurla çalışar.

"Bakıda məktəbdə müəllim, şagird və valideynlər arasında dava düşüb, 5 nəfər xəsarət alıb". Bu xəbər məncə bir az uğursuzdur. Yoldan keçənlər harda ölüblər? Niyə onlar da davaya qatışmayıblar? Belə olmaz. Nəticədə millətdə təhsil proseslərinə, rəhmətlik Misir müəllimin bizə yadigar qoyduğu Balon prinsiplərinə biganəlik yaranır. Hər belə davada gərək yoldan keçən hansısa zəhmətkeşin də gözünə sirkul girsin, başında transportir sındırılsın, sifətinə sulfat turşusu atılsın.

Ancaq bu xəbər çox sevindiricidir: "Direktor müavini bütün kollektivi terror edir, hamımızı bezdiribdir. Müəllim adına xələl gətirən bu qadının ortalıqdakı ləqəbi Kleopatradır. Bundan baş idarəyə şikayət yazdıq, imza toplayıb göndərdik. Heç bir cavab gəlməyəndə bu qadın kollektivə hücum etdi, bir müəllimi boğub öldürdü".

Əladır. Görün orda necə isti pedaqoji mühit yaranıbdır, artıq hansısa müəllimi boğub öldürmək cırcıramanın quyruğunu qopardıb hinduşkaya vermək kimi adi haldır. Heç boğulanın adını da çəkmirlər. Madam boğulmusan, ad nəyə lazımdır? Bacarana baş qurban. Gördün otlaq sahəsi quruyub, get ayrı sahəyə. Bulaqdan su içməyə gedəndə ehtiyatlı ol, hər an boynuna kimsə hoppana bilər.

Sözgəlişi, Hirkan təbiət qoruğumuzda ekoloqlarımız 5 üzvü olan bəbir ailəsinin şəklini foto-tələ vasitəsiylə çəkməyi bacarıblar. Halal olsun, bəbirlərimizin artımı olduqca sevindiricidir.

Elə deputatxanamızın vitse-spikeri Bahar xanımın millətə ünvanlanan "Ayağınızı yorğana görə uzadın, gələn il çox çətin olacaqdır" sözləri də bizə ruh verir, bir növ, yol xəritəsi rolunu oynayır. Hər kəs indidən kimi ovlayacağını gözaltı etsin, mağarasını nə ilə istiləşdirəcək, cəmdəyi hansı alovda ütəcək, belinə kimin gönündən qurşaq bağlayacaq - bunları dəqiq planlaşdırsın. Əks halda deputatın tövsiyyəsinin nə mənası qalır?

Yeri gəlmişkən, başqa dünya ölkələrində hökumət milləti dolandıra bilməyəndə istefa verir. Bahar xanım isə məsləhət görür ki, millət istefa versin. Sitat: "Hökumətdən gözləntilərinizi sonraya saxlayın". Yaz gələr, yonca bitər, neft qalxar söhbətinin başqa formasıdır. Ancaq demir ki, biz niyə bacarıqsız hökuməti bir il (beş il, on il, on beş il - müddət də dəqiq bilinmir) gözləməliyik?

Necə deyərlər, ay səni dovşan yesin, saxlasın axşam yesin...

# Strateji tərəfdaşlıqdan strateji müttəfiqliyə - tarixi qərar anı

**Azərbaycan prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına ikinci rəsmi səfərinə hazırlıq gedir (Birinci rəsmi səfər 2005-ci ildə baş tutub, 2015-də isə o, İƏT toplantısı çərçivəsində Pakistanda olub). Gələn ilin əvvəlinə planlaşdırılan bu ziyarət, şübhəsiz ki, ikitərəfli əlaqələrin inkişafında növbəti mərhələnin əsasını qoyacaq.**




# Ermənistanın hərbi balans yaratmaq ümidi həmişəlik basdırılır - gözlənilməz gəlişmə

## İlham Əliyevin kritik səfəri - ya Türkiyə, ya da Pakistanla...; iki dost dövlətdən biri ilə Azərbaycanın hərbi müttəfiqlik müqaviləsi imzalamasının zamanı çatıb; prezidentin ziyarətini Pakistan səbirsizliklə gözləyir; baş nazir Nəvaz Şərifi "füsunkar oğlan" adlandıran Donald Trampdan erməniləri məyus edən müjdə...

Bu gün Pakistan Azərbaycandan ötrü faktiki, Türkiyə qədər vazkeçilməz, dost-müttəfiq statusunda və dəyərində olan bir dövlətdir. Müstəqilliyimizi Türkiyədən sonra ikinci sırada tanımış Pakistan həmçinin, nüvə silahına malik yeganə müttəfiqimizdir. Bu, nüvə dövləti Rusiya ilə Ermənistanın müttəfiqliyinin ölkəmiz üzərində yaratdığı psixoloji üstünlüyü tamamən neytrallaşdırmağa qadir yetərincə mühüm və strateji əhəmiyyətli bir məqamdır. Nəhayət, Pakistan Ermənistanın müstəqilliyini tanımayan yeganə ölkədir.

*****

Hazırda Bakı ilə İslamabad arasında əlaqələr bütün sahələr üzrə ən yaxşı dövrünü yaşayır desək, yanılmarıq. Təsadüfi deyil ki, son illər hər iki tərəfdən yüksək səviyyədə qarşılıqlı səfərlər xeyli intensivləşib. Üstəlik, hər belə səfər əlaqələrə özünəməxsus dinamika verməsi ilə yadda qalıb - ələlxüsus da hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində. Bu il ərzində həm Pakistanın prezidenti Məmnun Hüseynin və baş nazir Məhəmməd Nəvaz Şərifin, həm də müdafiə naziri Məhəmməd Asif və müdafiə sənayesi naziri Rana Tanvir Husainin böyük bir nümayəndə heyətləri ilə uğurlu Bakı səfərləri qənaətimizi təsdiqləyir.

Azərbaycanın yüksək rütbəli rəsmilərinin, generalitet təmsilçilərinin son illər Türkiyədən sonra ikinci ən çox səfər etdikləri dövlət də məhz elə dost Pakistandır. Son olaraq (noyabr ayında) baş nazirin 1-ci müavini Yaqub Eyyubovla hərbi sənaye naziri Yavər Camalov, ondan az öncə isə müdafiə naziri Zakir Həsənov Pakistanda olub, ən yüksək səviyyədə görüşlər keçiriblər.

Bu, əlbəttə ki, çox yaxşı göstəricidir. Eyni zamanda Azərbaycanı hərbi və hərbi-təhlükəsizlik baxımından tək-tənha sayan düşmənlərimizə bir göz dağı, xəbərdarlıq mesajı sayılacaq göstəricidir. İkitərəfli təmasların zirvəsi isə sözsüz ki, prezidentlərin görüşüdür. Qeyd edildiyi kimi, bu il həm Pakistanın prezidenti, həm də baş naziri Azərbaycanda olub hər iki səfər hərbi-əməkdaşlıq sahəsində əlaqələrin dərinləşməsi ilə yadda qalıb. İndi isə prezident İlham Əliyevin dost ölkəyə səfəri gözlənilir.

*****

Ən önəmlisi odur ki, Pakistan Ermənistan üzərində hərbi üstünlüyümüzü saxlamaq üçün bizə real şəkildə kömək edə biləcək həlledici dövlətlərdən biridir. Prezident İlham Əliyevin qarşıdakı səfəri hər şeydən öncə bu kontekstdə önəm daşıyır. Yəqin ki, belə də olacaq və rəsmi ziyarət Ermənistanın yuxusunu qaçıracaq çox mühüm və yeni anlaşmaların və sənədlərin imzalanması ilə yadda qalacaq.

Söhbət ən əvvəl Pakistandan modern hava hücumundan müdafiə sistemlərinin alınmasından, eyni zamanda, müasir döyüş sistemlərinin Azərbaycanda (ortaq) istehsalını təşkil etməkdən gedir - nə barədə ki, Nəvaz Şərifin oktyabrda Bakı səfəri çərçivəsində prezident Əliyevlə onun arasında müzakirələr aparılıb.

Əslində söhbət həm də ölkələrimiz arasında əlaqələri hərbi müttəfiqlik səviyyəsinə qaldırıb rəsmiləşdirməkdən, yəni öncəliklə hərbi saziş imzalamaqdan getməlidir. Rusiya ilə işğalçı Ermənistanın ortaq hərbi qruplaşma yaratdığı vaxtda ya qardaş Türkiyə, ya da Pakistanla bu cür müqavilənin bağlanması, beləliklə də Azərbaycanın təhlükəsizliyinin daha etibarlı səviyyəyə qaldırılması artıq zamanın imperativinə çevrilib. Bununla ciddi maliyyə imkanlarından məhrum Ermənistanın hərbi balans yaratmaq ümidləri həmişəlik basdırıla, düşmən Qarabağ danışıqlarında konstruktiv mövqeyə məcbur ola bilər.

*****

Bəzi təhlilçilərə görə, Türkiyə ilə Azərbaycan arasında belə bir sənədin imzalanmasına qardaş ölkənin NATO üzvü olması maneə yarada bilər. Ancaq Türkiyə, məsələn, on illərdir Şimali Kiprdə böyük hərbi kontingent saxlayır və buna görə ona NATO-dan ona heç bir etiraz olmayıb. Eyni qaydada və Qars müqaviləsinin iki əsas tərəfindən biri olaraq qardaş ölkə Naxçıvanda hərbi bazalar yerləşdirə bilər. Pakistan dövləti üçünsə, ümumiyyətlə, bu qəbildən əngəllər mövcud deyil və Azərbaycan belə bir imkanı rahatca nəzərdən keçirə bilər.

Bu, avtomatik şəkildə o anlama gəlmir ki, müharibə variantında Türkiyə və ya Pakistan dərhal Azərbaycanın tərəfində müharibəyə qoşulacaq. Ancaq ən azından Ermənistan və onun havadarları, ilk növbədə isə işğalçı ilə hərbi müttəfiqliyini gücləndirən Rusiya üçün çəkindirici amilə çevriləcək. O ki qaldı Azərbaycanın "Qoşulmamaq hərəkatı"nın üzvü olması və qanunla ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsinin yasaqlanmasına, bu da problem deyil. Qanuna düzəliş oluna bilər. Çünki öncə təhlükəsizliyimiz və suverenliyimizdir...

*****

Pakistan mövzusunda daha bir əhəmiyyətli və diqqətçəkici detal: ötən həftə ABŞ-ın yeni prezidenti Donald Trampla Pakistan baş naziri Nəvaz Şərif arasında telefon danışığı olub. Tramp Pakistan qarşısında duran problemlərin həllində Pakistana kömək etməyə hazır olduğunu söyləyib. Ən maraqlısı odur ki, danışıqların yekununda Ağ Evin təzə başçısı Pakistan baş nazirini "füsunkar oğlan" adlandırıb.

Bu - bizə dost-müttəfiq ölkə kimi Pakistanla ABŞ arasında əlaqələrin qarşıdakı 4 ildə yaxşı axarda gedəcəyi barədə olduqca pozitiv bir anons, erməniləri, erməni lobbisini isə pəjmürdə edən mesajdır. Çünki artıq Pakistana münasibət həm də Azərbaycana münasibət deməkdir.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**2016-cı ilin bitməsinə sayılı həftələr qaldı. Əfsus ki, ötən illər kimi bu il də Dağlıq Qarabağ münaqişəsinin həlli üçün növbəti itirilmiş dövr kimi tarixin arxivinə qovuşur. Aprel döyüşlərindən sonra nizamlama prosesinin sürətlənəcəyinə ümidlər yaransa da, çox keçmədən həmin ümidlər də basdırıldı. Öz arxasında sahibi Rusiyanın daha güclü dəstəyini hiss edən işğalçı Ermənistan təzədən təxribatçı mövqeyinə qayıtdı.**





# Qarabağ problemi Kreml üçün prioritetə çevrilir?

## Rusiyanın yeni xarici siyasət konsepsiyası konfliktin həlli üçün nə vəd edir - effektli nizamlama, yoxsa daha uzun müddətə konservləşdirmə? **Rusiya rəsmisi:** "Biz həmişə ona təkid edəcəyik ki..."

Bu arada Rusiya prezidenti Vladimir Putinin öz ölkəsinin xarici siyasəti üçün prioritet məsələlər sırasında Dağlıq Qarabağ münaqişəsinin də yer aldığı yeni konsepsiyanı təsdiqlədiyi bəlli olub. Bəs, görəsən həmin konsepsiya problemin həllini asanlaşdırmağa yardımçı olacaq, yoxsa Kremlin bir az da güclü nəzarətinə keçməklə daha uzun müddətə konservləşdiriləsinə?

Hələlik bu suala birmənalı cavab vermək mümkün deyil. Yəqin ki, növbəti ilin ilk aylarında, ən uzağı, yaza kimi bunu biləcəyik ki, Rusiya "prioritet" adı altında nəyi nəzərdə tutur? Hər halda rəsmi Bakı ümidlidir ki, bu, konfliktin nizamlanmasında məhz şimal qonşumuzun prinsipial yeni və konstruktiv yanaşmasına gətirəcək, nəhayət, ixtilafın dinc yolla həllində sıçrayışlı irəliləyiş baş verəcək.

Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi Mətbuat Xidmətinin rəhbəri Hikmət Hacıyev deyib: "Yeni xarici siyasət konsepsiyasında Rusiya Federasiyasi tərəfindən digər həmsədr ölkələrlə qarşılıqlı fəaliyyət şəraitində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin prioritet vəzifələr sırasında müəyyən olunmasını alqışlayır və təqdir edirik". Onun sözlərinə görə, konsepsiyada münaqişənin həlli prosesində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçılarının 2009-2013-cü illərdə verdikləri bəyanatlarında ifadə olunan prinsiplərin əsas götürüldüyü qeyd olunub. "Qeyd etmək lazımdır ki, bu bəyanatlarda Minsk Qrupunun həmsədr ölkələri dövlət başçıları səviyyəsində xüsusilə mövcud status-kvonun qəbuledilməzliyi və qeyri-davamlı olduğunu vurğulayırlar" - XİN sözçüsü bildirib.

H.Hacıyev deyib ki, Azərbaycan tərəfi prezidentlərin Sankt-Peterburq görüşündə aparılmış müzakirələrə uyğun olaraq, Rusiya və Minsk Qrupunun digər həmsədrləri ilə birlikdə münaqişənin substantiv danışıqlar yolu ilə həlli, qəbuledilməz və qeyri-davamlı olan mövcud status-kvonun tezliklə dəyişdirilməsi istiqamətində konstruktiv addımların davam etdirəcək.

*****

Beləliklə, Rusiya nəzəri də olsa, gələn il problemin həllinə diqqəti artıracağının anonsunu vermiş olub. Ancaq gerçəkdə Moskvanın Qarabağ siyasətində hansı müsbət dəyişikliklər olacağı və ya heç olmayacağı önümüzdəki dönəmdə bilinəcək. Çox şey yəqin ki, həm də Moskvanın Bakı və Ankara ilə münasibətlərinin xarakterindən asılı olacaq. Yeri gəlmişkən, srağagün Bakıda səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiyanın bu yöndə səylərini dəstəklədiyini bildirib.

"Rusiya xarici işlər naziri Sergey Lavrovla Türkiyədə keçirilən görüşdə Dağlıq Qarabağ məsələsini müzakirə etdik". Bunu Çavuşoğlu azərbaycanlı həmkarı Elmar Məmmədyarovla görüşdən sonra keçirilən mətbuat konfransında deyib. Onun sözlərinə görə, görüşdə Türkiyənin məsələ ilə bağlı mövqeyi bir daha açıqlanıb: "Biz Azərbaycanın mövqeyini dəstəkləyirik. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacib olduğunu bir daha vurğuladım. Bundan əvvəl Soçidə Sergey Lavrovla görüşümüzdə də Qarabağ məsələsini müzakirə etmişdik. Rusiyanın bu istiqamətdə səylərini dəstəkləyirik. Ancaq son vaxtlar münaqişənin həlli ilə bağlı prosesləri sürəti aşağı düşüb".

Bəzi Rusiya rəsmiləri də bu xüsusda optimist görünürlər. Məsələn, Rusiya Federasiya Şurasının beynəlxalq əlaqələr komitəsinin sədri Konstantin Kosaçov hesab edir ki, Moskvanın vasitəçiliyi Dağlıq Qarabağ ixtilafının nizamlanması şansı indi daha hissedilendir. Bunu o, "Vestnik kavkaza" nəşrinə 2016-cı ildə Rusiyanın Güney Qafqaz ölkələri ilə əlaqələrin yekununu şərh edərkən bildirib.

"Dünya dəyişir və Cənubi Qafqaz da istisna deyil. Biz hələ də ona hesab götürürük ki, Azərbaycanla Ermənistan arasında dialoq və Qarabağ probleminin dinc həll axtarışları davam edəcək. Təəssüf ki, bu ilin aprelində biz kəskinləşmə gördük - hansını ki, xoşbəxtlikdən kifayət qədər qısa zamanda dayandırmaq mümkün oldu. Və siyasi prosesin davam edəcəyinə ümidlər hələ də qaldı, eyni zamanda daha hissedilən oldu", - deyə Rusiya rəsmisi əminliklə qeyd edib.

"Rusiya, sözsüz ki, əsas vasitəçi kimi, Dağlıq Qarabağ konfliktinin nizamlanmasında maksimal konstruktiv rol oynamaqda davam edəcək. Bizim Azərbaycan və Ermənistanla münasibətlərimiz şəksiz ki, prioritet xarakter daşıyır. Hərçənd prezidentin (Putinin-red.) illik müraciətində Rusiyanın qonşu ölkələri haqda xatırlatma yoxdur, ancaq heç bir şübhə yox ki, həm Azərbaycan, həm də Ermənistan bizim üçün çox vacib tərəfdaşlardır. Biz bu iki ölkə arasında Qarabağ probleminin həll olunmamasına görə narahatlıq keçiririk" - Kosaçov bildirib.

Onun sözlərinə görə, Rusiya Azərbaycanla Ermənistan arasında problemlə bağlı hər iki tərəfi qane edən anlaşmanı dəstəkləməyə və ona yardımçı olmağa hazırdır: "Biz həmişə ona təkid edəcəyik ki, bu anlaşmalar müstəsna olaraq dinc yolla, bir-birinə güc yolu ilə təzyiq olmadan işlənib hazırlansın. Biz bu yöndə ardıcıl şəkildə azərbaycanlı və erməni həmkarlarımızla, o cümlədən parlament xətti ilə işləyirik. Bu iş öz hiss olunan nəticəsini artıq verməkdədir".

*****

Ancaq Qarabağ probleminin həllinə hansı yandan təkan vurulur-vurulsun, aydındır ki, ilk növbədə işğal altındakı ərazilər azad olunmağa başlamayınca, heç bir irəliləyiş mümkün olmayacaq. Həm də bu, İrəvanın hər hansı ön şərt irəli sürmədən olmalıdır.

"Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxmalıdır". Bunu da Türkiyə XİN başçısı Bakıda bəyan edib. O, E.Məmmədyarovla keçirilən görüşdə Qarabağ münaqişəsinin nizamlanmasını geniş müzakirə etdiklərini, Rusiya başda olmaqla, digər ölkələrlə bu barədə aparılan müzakirələrin də diqqət mərkəzində olduğunu söyləyib. "Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Minsk Qrupu da səylərini gücləndirməlidir" - nazir əlavə edib.

Qardaş Türkiyənin Dağlıq Qarabağ məsələsində tutduğu prinsipial mövqe Azərbaycan üçün təbii ki, böyük önəm kəsb edir. Təəssüflər olsun ki, bu, ixtilafın ədalətli nizamlanması üçün yetərli deyil. Vacibdir ki, Rusiya da öz forpostu, işğalçı Ermənistanı konstruktiv mövqe tutmağa vadar eləsin. Bu olmayacaqsa, deməli, Kremlin yeni xarici siyasət konsepsiyasında Dağlıq Qarabağ konfliktinin prioritet olması barədə qeydlər fiksiya, yaxud gözdən pərdə asmaq cəhdindən başqa bir şey deyil.



## Ermənilər Trampla bağlı təlaşda: "Bir dəfə də olsun, erməni sözünü dilə gətirməyib"

**"ABŞ-da Donald Trampın prezident seçilməsi ermənilər üçün təhdiddir. Çünki son onilliklər ərzində ilk dəfədir ki, ABŞ-da erməni məsələsi barədə anlayışı olmayan, bir dəfə də olsun Ermənistan barədə danışmayan və erməni sözünü dilə gətirməyən, nə Qarabağ münaqişəsi, nə "soyqırım" barədə heç vaxt bəhs etməyən biri prezident olacaq". Bu sözləri erməni politoloq Ruben Sfrastyan deyib (Virtualaz.org).**

Erməni politoloqun fikrincə, ABŞ-ın əvvəlki prezidentlərinin erməni məsələsi haqda anlayışı, öz mövqeləri var idi, çünki onlar siyasi istebleşmentə məxsus idilər. Tramp isə biznesdən gəlib. "Onun erməni məsələsi barədə anlayışı belə yoxdur" - Safrastyan bildirib. Onun fikrincə, Ermənistan və erməni diasporu Trampın inauqurasiyasına qədər əlindən gələni etməlidir ki, onunla təmas qursun.

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016



# 340 manatlıq qan analizi

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Qiymətlərlə bərabər cəmiyyətdə aqressiya da artır. Bu, çox təhlükəli haldır. Azərbaycanın son illərdəki ən böyük qazancı neft pulları yox, məhz sabit cəmiyyət formalaşdırmasıdır. Sosial şəbəkələrdə təkcə bir deputatı özünün də saydığı kimi, 932 nəfər söyürsə, bu, çox pis göstəricidir, cəmiyyətdəki kinin-küdurətin nümunəsidir.**

Yeri gəlmişkən, "ürəyindən tikan çıxardığını" zənn edənlər bilməlidir ki, söymək çıxış yolu deyil. Üstəlik, internetdə təhqir və böhtana görə cəzalar ağırlaşdırıldığı üçün "söyüş məhbusu" olmaq təhlükəsi də var. Təhqir etmək yerinə təklif vermək, normal tənqid etmək daha faydalıdır.

Anlaşılandır, vəziyyət heç də yaxşı deyil. Bunu nəinki meydanda olmasa da, ara-sıra mətbuat və sosial şəbəkələrdə görünən müxalifətçilər, hətta iqtidar təmsilçiləri özləri də etiraf edirlər. Büdcə müzakirələrindən sonra İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadəyə "bu dəfə xalqla açıq danışırsınız" dedim, güldü. Axı, adətən, müxalifət "gələn il daha maraqlı olacaq" dediyi kimi, hökumət üzvləri də "daha firavan həyat" vəd edirdi. Bu dəfə isə maliyyə naziri Samir Şərifov, baş bankir Elman Rüstəmov "gələn il vəziyyət mürəkkəb olacaq" dedilər. Belə daha yaxşı. "Örtülü bazar, dostluğu pozar" misalı var hər halda...

Di gəl, bunun ardınca iqtidar mediasında Tarif Şurasının bahalaşma qərarı az qala "xalqın tələbi" kimi təqdim olunur. Hansı ki, kəndli də zərər çəkib, iş adamı da, deputat. Demək, hər birimizə təsir edən duruma görə qarşılıqlı ittihamları, ya qeyri-səmimi təbliğatı dayandırıb, çıxış yolları aramalıyıq.

Daha normal olardı ki, xalqla tam açıq danışılsın. Məsələn, vətəndaşlara vəziyyət doğru-düzgün izah olunsa, hətta yardım istənilsə, bizim aza qane sadə insanlarımız yenə də durumla barışar, "elnən gələn toy-bayram olar" deyib dözər. Biz bu xalqın ağır sınaqlardan çıxdığını azmı görmüşük?

Rəsmi şəxslər də danışarkən elə ifadələr seçməlidirlər ki, dedikləri sərt reaksiya doğurmasın. Deyək ki, neftin qiyməti ilə bağlı proqnozlar doğrulmayıb, ya dolların "od tutub yanacağı" gözlənilməz olub. Bəs, hökumət üzərinə düşən vəzifələri niyə "unudur?"

Gecəyarı Tarif Şurası qiyməti qaldırmaqla faktiki olaraq ölkə iqtisadiyyatını böyrü üstə qoyur. Qazın qiyməti qalxandan sonra istixana sahibi Türkiyə və İrandan pomidor-xiyar gətirməyə daha çox maraqlı olacaq, nəinki ikiqat qiymətə məhsul yetişdirməyə.

Hökumət izah eləsin görək, 2017-ci ilin dövlət büdcəsində sahibkarlığın inkişafına vəsait ayrılmaması nə deməkdir? Axı, Azərbaycanın mövcud vəziyyətdən xilası üçün sahibkarlıq fəaliyyətinin reanimasiyadan çıxarılması, heç olmasa palataya köçürülməsi çox önəmlidir. Sahibkarlıq subyektləri dövlətə həm də iri məbləğdə vergi ödəyir, büdcənin formalaşmasında onların böyük rolu var. Yəni dövlət bu sektora "oksigen balonu" verərsə, özünün sabahına yatırım qoymuş olar. 2017-ci ildə təkcə idman obyektlərinin tikilməsinə 334 milyona yaxın vəsait xərclənəcək. Razıyıq, idman sağlamlıqdır. Amma insan öncə normal qidalanmalı, ovqatı babat olmalıdır ki, sonda idman haqda da düşünsün. Bankdan asılı olan, kommunal xərcləri ödəmək dərdi çəkən, işi ixtisara düşən, balalarının qarşısında gözükölgəli olan idman zalınamı gedər? Deməli, yeni obyektlər tikilsə belə, qapıları uzun müddət qapalı qalacaq.

Yaxud bu gün ölkə üçün daha vacib olan icbari tibbi sığortanın tətbiqidir. Son aylarda bilirsinizmi paytaxtın özündə nə qədər yeni apteklər açılıb? Dərmanların sürətlə bahalaşmasına baxmayaraq, aptekçilik inkişafdadır. Çünki xəstəliklər tüğyan edir, vətəndaşlar çörəyindən kəsib dərmana xərcləyir.

O gün xəstəxanaların birində kasıb görkəmli bir qadının iki uşağının qan analizləri üçün 340 manatı sayıb kassaya verdiyini görəndə ürəyim ağrıdı. Bəlkə də aylarla normal qidalanmamışdı o uşaqlar, analiz pulu yığmışdılar... Düzdür, gələn il iki rayonda tibbi sığorta ilə əlaqədar pilot layihələrə başlanacaq. Ancaq gecikirik, qonşumuz, bizdən asılı olan Gürcüstan çox irəli gedib. Torpağı düşmən tapdağından azad etmək üçün bizə sağlam vətəndaş lazımdır. İşığın, qazın qiymətinin artmasını özünə dərd edənlərimiz isə vaxtında müayinəyə getməyəcək, ta ki, icbari tibbi sığortanın tətbiqinə başlanana qədər.



# Sabiq polis rəisinin başı dərddə

## Məhkəməyə zorla gətiriləcək keçmiş rəisin arvadının dələduzluq əməlində əli var...

**Keçmiş polis rəisinin arvadı dələduzluqda təqsirləndirilir. Hazırda məhkumluq həyatı yaşayan Leyla Əkbərovanın məhkəməsinə əri - sabiq polis rəisi Mahir Əkbərov da gətiriləcək. Bu barədə sonuncu məhkəmə prosesində qərar verilib.**

L.Əkbərova özünü internat evinin direktoru kimi təqdim edərək və yüksək vəzifəli şəxslərlə yaxın münasibətlərinin olduğunu söyləyərək bir neçə nəfərdən işə düzəltmək adı ilə külli miqdarda pul almaqda təqsirləndirilir. Onun pul aldığı şəxslərdən biri öz qohumu olub. Daha sonra bu qohumluq da pozulub.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim qarşısına çıxarılan L.Əkbərova isə ondan şikayətçi olan şəxslərdən pulu işə düzəltmək adı ilə deyil, borc olaraq aldığını deyir. Sonuncu məhkəmə prosesində iş üzrə şahid qismində Təfəkkür Universitetinin prorektoru İlham Musayev ifadə verib. İ.Musayev məhkəməyə saxta diplom epizodu üzrə çağırılıb. Belə ki, həbs edilən Leyla Əkbərova bir zamanlar qohumu olan A.Məmmədovaya diplomunun saxta olduğunu deyərək bu problemi həll etmək üçün ondan 5 min manat tələb edib. Diplomun saxta olduğunu sübut etmək üçün öz əməlinə İ.Musayevi də cəlb etmək istəyib.

L.Əkbərova universitetin prorektoru İlham Musayevin yanına gedərək, ondan tələb edib ki, A.Məmmədovaya diplomunun saxta olduğunu desin. Ancaq prorektor diplomun saxta olmadığını bildirərək, L.Əkbərovanın təklifini qəbul etməyib. Bundan sonra L.Əkbərova vəzifəli şəxslərlə əlaqələrinin olduğunu deyərək prorektora hədə-qorxu gəlib. Prorektor məhkəmədə deyib ki, o, diplomun saxta olması haqda heç bir fikir bildirməyib.

Zərərçəkmiş Anarə Məmmədova: "Məni işə düzəldəcəkdi. Diplomumu aldı. Sonra dedi ki, diplom saxtadır. Bunun üçün 5 min manat istədi. Mən də inanıb verdim".

Məhkəmədə zərərçəkmiş A.Məmmədovanın vəkili Vasif İsrafilov vəsatətlə çıxış edib. Vəkil daha iki şəxsin məhkəməyə əlavə şahid kimi gətirilməsini istəyib. Həmin şahidlər həbs edilən L.Əkbərovanın qızı Fidan Əkbərova və 45 saylı orta məktəbin direktor müavini Rəsmiyyə Nağıyevadır.

"Leyla Əkbərovanın qızı Fidan anasının saxta sənəd hazırlamasında iştirak edib. Fidan anasının insanlara saxta maaş kartları, rəsmi sənədlər hazırlamasında birbaşa iştirak edib və məlumatlıdır. Leyla Əkbərovanın dələduzluq əməllərindən Rəsmiyyə Nağıyeva da məlumatlıdır. Onların məhkəmədə dindirilməsi bəzi məqamlara aydınlıq gətirəcək. Həmçinin tələbimiz budur ki, Leyla Əkbərova ilə əri Mahir arasında olan telefon danışıqları Daxili İşlər Nazirliyinin İstintaq İdarəsindədir və həmin danışıqlar məhkəməyə gətirilsin. Həmin diskin məhkəməyə təqdim edilməsini və burada araşdırılmasını istəyirik. Qeyd edilən telefon danışıqlarında onlar öz əməllərini etiraf edirlər. Hazırda həmin telefon danışıqları bu işdən ayrılan başqa cinayət işinin istintaqı zamanı araşdırılır", - deyə vəkil vəsatələrini əsaslandırıb.

Məhkəmə telefon danışıqlarının məhkəməyə göndərilməsi ilə bağlı vəsatəti təmin edib. Əlavə şahidlərin gətirilməsi ilə bağlı vəsatət isə növbəti məhkəmədə baxılacaq. Vəkilin vəsatətlərindən sonra məhkəmədə tərəflər arasında gərginlik yaşanıb. Leyla Əkbərova qızının adının bu işdə hallandırılmasına etiraz edib. Onun bu etirazına zərərçəkmiş A.Məmmədova da reaksiya verib.

Hakim Rahib Salamov qeyd edib ki, iş üzrə şahid qismində dindirilməyən iki nəfər qalır. Onlardan biri Mahir Əkbərov, digəri isə onun anasıdır. M.Əkbərov məhkəməyə çağırılsa da, Naxçıvana yas mərasiminə getdiyini deyərək prosesdə iştirak edə bilməyəcəyini bildirib. Hakim qeyd edib ki, M.Əkbərov növbəti məhkəmə prosesində iştirak etməyəcəyi təqdirdə onun polis vasitəsi ilə məhkəməyə gətirilməsi ilə bağlı qərar veriləcək.

Bildirək ki, bu iş üzrə bir neçə nəfər zərər çəkib. Onlar da işə düzəlmək, təqaüdə çıxmaq üçün pulları Anarə vasitəsi ilə Leyla Əkbərovaya çatdırıblar. Bu işdə Anarə Məmmədovanın özü də zərərçəkən kimi tanınır. Onun ərinə ikinci təhsil diplomu almaq, FHN-ə işə düzəltmək üçün Leyla Əkbərova və onun ərinə ümumilikdə 110 min manata yaxın pul veriblər.

Dələduzluqda təqsirləndirilən L.Əkbərova Binəqədi Rayon Polis İdarəsinin narkotiklərlə mübarizə idarəsinin keçmiş rəisi Mahir Əkbərovun arvadıdır. Qeyd edək ki, sabiq rəisin özü də dələduzluqda ittiham olunur.

Hazırda L.Əkbərova Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq) və 320-ci (saxta sənəd hazırlama) maddələri ilə ittiham olunur. Məlumata görə, 95 saylı orta məktəbdə müəllimə işləyən Leyla Əkbərova əri Mahir Əkbərovun qardaşı Elçin Əkbərov vasitəsilə xaricə qaçmaq istəyirmiş. O, pasportunu dəyişdirərkən saxlanılıb. Elçin Əkbərov Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrində rəis işləyib və hazırda Almaniyada mühacir həyatı yaşayır.

Adı dələduzluqda hallanan polis rəisi Mahir Əkbərov polis orqanlarından xaric edilib. Onun barəsində də ayrıca cinayət işinin açıldığı bildirilir. Məhkəmə prosesi dekabrın 9-da davam etdiriləcək.

❑ İlkin Muradov

# Dəm qazı daha iki can aldı



**Bakıda ölümlə nəticələnən bədbəxt hadisə baş verib. Lent.az-ın məlumatına görə, Səbayel rayonu Bayıl qəsəbəsində yaşayan 1964-cü il təvəllüdlü Quliyev Afər Müzəffər oğlu dəm qazından zəhərlənərək vəfat edib. Onun meyiti hamam otağında tapılıb. Faktla bağlı araşdırma aparılır.**

Gəncədə isə 49 yaşlı qadın hamamda ölüb. APA ttp://apa.az/-nın qərb bürosunun verdiyi məlumata görə hadisə şəhərin E.Qurbanov küçəsində ev 17-də qeydə alınıb. Həmin ünvanda yaşayan 1967-ci il təvəllüdlü Flora Haçıyeva hamamda ölüb. Qadının dəm qazından boğularaq öldüyü ehtimal olunur. Ancaq ölümün dəqiq səbəbi ekspertizadan sonra məlum olacaq.

Faktla bağlı hüquq mühafizə orqanları tərəfindən araşdırma aparılır.

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

# Türkiyə və Rusiya gizli Suriya anlaşması içində

**Ötən həftə Suriya müxalifəti təmsilçilərinin Türkiyənin vasitəçiliyi ilə Ankarada Rusiya diplomatları ilə danışıqlar aparması haqda xəbər yayıldı. Britaniyanın "Financial Times" qəzeti ilk olaraq bu məlumatı suriyalı üsyançı qruplardan birinin təmsilçisinə istinadən yayımladı.**

## Ankara yenidən əvvəlki vasitəçi statusuna qayıdır; ABŞ prosesdən kənarda saxlanılır?



Bunun ardınca məlumatı Türkiyə və Rusiya diplomatları da təsdiqlədi. Dekabrın 1-də Rusiya XİN rəhbəri Sergey Lavrov Türkiyə səfəri zamanı müxalifətlə danışıqlar aparmasını təsdiqləyib. Lavrov deyib ki, Rusiya həm ölkə xaricində olan müxaliflər, həm də Suriyadakı müxalifət təmsilçiləri ilə danışıqlar aparır. Bütün müxalif qüvvələrlə danışıqlar aparmaqda hansısa maneənin olmadığını deyən Lavrov Türkiyənin də vasitəçilik etdiyi danışıqların davam etdiyini qeyd edib.

Çavuşoğlu isə deyib ki, danışıqlar təklifini hələ avqust ayında Rusiya tərəfinə verib. Onun sözlərinə görə, Suriyada davamlı sülhün yaranması üçün bütün tərəflərin iştirak etdiyi iştirak etdiyi bir anlaşma olmalıdır. Maraqlıdır ki, həmin gün Ankarada Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Suriya müxalifətinin əsas koalisiyalarından biri olan Ali Müzakirə Heyətinin koordinatoru Riyad Hicabı qəbul edib.

Bu hadisələrin üst-üstə düşməsi maraq doğurub. Məsələ ondadır ki, Türkiyənin Suriya mövzusunda Rusiya ilə danışıqlar aparması haqda daha əvvəl də yazılıb. Ancaq indi məlum olur ki, Hələb mövzusunda, deməli həm də münaqişə ilə bağlı müxaliflərlə Rusiya arasında danışıqlar var. Doğrudur, müxaliflər də etiraf edib ki, ruslarla danışıqlar heç də "rəvan getmir", ancaq buna baxmayaraq müzakirələr davam edir. Yəni hər iki tərəf danışıqlarda maraqlıdır. Və proses davam edir.

Bu danışıqların maraqlı detalı ondan ibarətdir ki, həm Ankara, həm Moskva, həm də müxaliflər müzakirələrdə Vaşinqtonun məlumatının olmasına ehtiyac duymayıblar. Suriya müxalifətinin təmsilçisi "əl-Cəzirə" telekanalına deyib ki, Ankarada ruslarla aparılan danışıqlar Vaşinqton nümayəndəsinin iştirakı olmadan qapalı aparılır, ABŞ-a heç bir bilgi verilməyib.

Məlum olduğu kimi, son bir ildə Suriya münaqişəsi ilə bağlı Türkiyə və ABŞ arasında dərin fikir ayrılığı yaranıb. Pentaqon Suriyanın şimalında kürdləri dəstəkləyir, kürdlər isə faktiki olaraq Türkiyə ilə düşməndirlər. Ankara üçün kürdlərin Suriyanın şimalında muxtariyyət yaratmasını Türkiyə ərazi bütövlüyü üçün təhdid hesab edir. Amma buna baxmayaraq Vaşinqton kürdlərlə əməkdaşlığı davam etdirir.

İndi isə Türkiyənin vasitəçiliyi ilə ölkə ərazisində Suriya mövzusunda gizli danışıqlar aparılır. İlk növbədə bu, o deməkdir ki, Türkiyə müxalifləri danışıqlara inandırıb və hansısa şəkildə danışıqlara və ortaq bir mövqe üzərində dayanmağa razılaşıblar. Bununla da Türkiyənin də iştirak etdiyi yeni bir danışıqlar formatı ortaya çıxıb. Bu formatda uzun müddətdir danışıqlar gedir və nədənsə indi tərəflər bu formatda danışıqları açıqlamağa qərar veriblər.

Belə görünür ki, Ankara artıq ənənəvi Qərb müttəfiqləri bir yerdə deyil, müstəqil şəkildə Suriya siyasəti yürüdür. Ankara həm Rusiyanın Suriyadakı gücünü neytrallaşdırmaq, həm də real olaraq Suriyada Ankaranın maraqlarına cavab verən bir anlaşmaya nail olmaq istəyir. Təbii ki, bu məsələdə Ankaranın Suriyanın şimalındakı kürdlərlə bağlı mövqeyi də nəzərə alınacaq.

Yeri gəlmişkən, buna qədər Ankaranın məhz ruslarla anlaşma içərisində Suriyanın şimalında hərbi əməliyyatlara başladığı haqda məlumatlar yayılıb. Türkiyə bir tərəfdən gücünü daha müstəqil şəkildə istifadə etmək, həm də hər iki tərəfin də uzlaşacağı bir formatı qurmağa çalışır. İndiki situasiyada Ankaranın bunun üçün imkanları yetərli görünür.

❑ **KƏNAN**

# Saakaşvili Gürcüstandakı uğurunu Ukraynada təkrarlaya biləcəkmi?

## Sabiq prezident öz iddiasını ortaya qoyub; **Elxan Şahinoğlu:** "Artıq o, Poroşenkonu korrupsiyanın başında duran adam adlandırır..."

**Gürcüstan və Ukraynanın Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvili Ukrayna siyasətində aktiv fəaliyyətə başlayıb. Bu ilin oktyabrında öz ölkəsindəki parlament seçkilərində partiyası məğlub olan sabiq prezident uğur qazanmaq yolunu Ukraynada görür.**



Mixail Saakaşvili

M.Saakaşvili artıq vətəndaşı olduğu Ukraynada yeni yaratdığı partiya üçün pul toplamağa başlayıb. Facebook sosial səhifəsində o, özü bu barədə məlumat verib: "Biz ilk başda dövlətlə sağlam əməkdaşlıq qurmaq istəyir və partiyanın inkişafı üçün pul topladığımızı elan edirik. Ukraynanın güclü dövlətə çevirmək niyyətimizi bəyan edirik". Partiya yaratmaqda məqsədinin hakimiyyətdən asılı olmayan, müstəqil siyasi qurum formalaşdırmaq olduğunu deyən Saakaşvili oliqarxlara qarşı cəbhə açıb. Bəs Odessada qubernator kimi fəaliyyət göstərdiyi dönəmdə xalqın rəğbətini qazanan Saalaşvili Gürcüstandakı uğurunu Ukraynada təkrarlaya bilərmi?

Politoloq Elxan Şahinoğlu Sakaşvilinin qubernatorluqdan istefa verdikdən sonra partiya yaradacağı ilə bağlı dediklərinin həyata keçdiyini bildirdi: "Qubernator olduğu zamanlar o, korrupsiya əleyhinə hərəkat yaratmışdı. Hərəkatın Kiyev və digər şəhərlərdə böyük toplantıları olmuşdu. Ukrayna televiziyaları da toplantılardan geniş xəbərlər vermişdi. Kiyevdə olanda bir neçə dəfə bu toplantıları izləmişəm. Prezidentlikdən getdikdən sonra Saakaşvili Amerikada çalışdı. Həmin vaxt Ukraynada dəyişikliklər olanda maddiyyatdan daha çox islahat aparan insanlara ehtiyac yaranmışdı. Ukraynanın Saakaşvilidən istifadə etməkdə ABŞ-ın da düşünürəm ki rolu oldu. O nəinki Ukraynaya özü gəldi, hətta keçmiş kadrlarını vəzifələrə təklif etdi. Bunun nəticəsində səhiyyə naziri, daxili işlər nazirinin müavini onun kadrları oldu. Qubernator olandan bir müddət sonra Saakaşvili bunun çətinliyini anladı. Çünki Gürcüstan və Ukraynanın fərqləri var. Burada Saakaşvili prezident idi, əhali Ukraynadan 10 dəfə az idi. Xaricdən aldığı dəstəyi islahatlara yönəldə bilmişdi. Qısa müddətdə korrupsiyanı aradan qaldırdı. Ukraynada isə səlahiyyət Saakaşvilidə deyildi. Bir sıra addımlar atdı, Azərbaycanda olan ASAN Xidmətə bənzər qurum yaratdı. Amma sonradan anladı ki, islahat aparmaq üçün bunu Kiyevlə bərabər etməlidir. Kimisə vəzifədən uzaqlaşdırmaq istəyəndə hökumətin razılığı alınmalı idi. Bunu isə edə bilmədikdə Saakaşvilidə belə fikir yarandı ki, korrupsiyanın başında hökumət dayanır. Ona görə istefa verib, hərəkatını partiyaya çevirdi. Hazırda onun əsas məqsədinin parlament seçkilərində iştirak edib, əsas baryeri aşmaqla parlament partiyasına çevrilməkdir. Bu, o demək deyil ki, o partiyasını qısa müddətdə ölkənin aparıcı təşkilatına çevirəcək. Ən böyük nailiyyəti o ola bilər ki, partiyasını parlamentə sala bilsin. Özünün də müəyyən iddiaları ola bilər. Amma Ukrayna qanunvericiliyinə görə, bir şəxs deputat və prezident olmaq üçün bir neçə il ölkədə yaşamalıdır. Saakaşvili isə qısa müddətdir orada yaşayır. Lakin özü olmasa belə, partiyasını parlamentə keçirib, təsir imkanlarını əldə saxlaya bilər. Bu, bir növ onun əzəli rəqibi İvanişvilinin siyasətinə bənzəyir. O, Saakaşvili üzərində parlament seçkilərində qalib gəldikdən sonra baş nazir oldu, amma sonra kənara çəkildi. Kənardan partiyasını və hökuməti idarə etdi. Prezidentliyə namizədi də özü müəyyən etdi. Hazırda Gürcüstanda prezidentlik və Nazirlər Kabineti faktiki İvanişvilidən asılıdır. Görünür Saakaşvili məcbur qalıb bu siyasəti yürüdəcək. Digər partiyalarla koalisiya haqqında da düşünəcək. Fikrimcə, partiyalar onun artan nüfuzunu nəzərə alıb, əməkdaşlığa gedəcəklər. Ukraynada əsas bələ korrupsiya və oliqarx sistemdir ki, Saakaşvili buna qarşı barışmaz mövqedədir. Ona görə də onun nüfuzu günbəgün artır".

Politoloq Saakaşvilinin Gürcüstanda tam məğlub olması ilə bağlı səslənən fikirlərlə razı deyil: "Düzdür, partiyası parlamentdə az səs topladı. İndiki gürcü hakimiyyəti öz postunu yenə də qorudu. Amma hadisələrin gedişatına baxmaq lazımdır. Əgər Saakaşvili Odessada uğur qazansaydı, bu vilayəti uğur adasına çevirə bilsəydi, bəlkə də Gürcüstandakı parlament seçkilərində qalib gələ bilərdi. Saakaşvili indi Ukraynada uğur qazanmalıdır. Əgər bu uğuru qazansa, Ukrayna xalqından dəstək alsa, Ukraynada islahatlar güclənsə, bu Saakaşvilinin Gürcüstanda da nüfuzunu artıra bilər. Üstəlik indiki gürcü hakimiyyəti islahatlarda uğur qazana bilməsə, insanlar alternativ axtarışına çıxacaqlar. Bu zaman isə əsas alternativ Saakaşvilinin partiyasıdır. Amma düşünürəm ki, yaxın 5-8 ildə onun ölkəsinə qayıtmaq planı yoxdur. Çünki partiyasını Ukraynada gücə çevirmək istəyirsə, demək uzunmüddətli mübarizəyə başlayır. Gürcüstan reallıqlarını da nəzərə alır".

E.Şahinoğlu Saakaşviliyə Ukraynada bundan sonra təzyiqlərin ola biləcəyi, vətəndaşlığının əlindən alınma ehtimalları ilə bağlı da məsələyə münasibət bildirdi: "İndiki hakimiyyət nə qədər nüfuzunu aşağı salsa da, islahatlar apara bilməsə də, demokratik hakimiyyətdir. Bu baxımdan antidemokratik addım atacağına inanmıram. İndiki vətəndaşlığı Saakaşviliyə Poroşenko verib. O zaman dost idilər, indi münasibətlər gərginləşib. Artıq Saakaşvili Poroşenkonu korrupsiyanın başında duran adam adlandırır. Onun artan nüfuzu ilə Poroşenko hesablaşmalıdır. Digər tərəfdən Saakaşvilinin arxasında Amerikadan müəyyən güclər dayanır. Poroşenkonun isə ABŞ-dan böyük asılacağı var. Həm maliyyə alır, həm də Rusiya ilə qarşı-qarşıya durmasında Amerikanın rolu böyükdür. Əgər Saakaşvilini vətəndaşlıqdan məhrum etsələr, qarşılarında Amerikanı görə bilərlər. Bu isə Ukraynaya problemlər yarada bilər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

**Bakı-Dərbənd yolu sərnişinlərinə bəribaşdan məsləhət görərdik avtomobilə minən kimi gözlərini yumub rahatca yuxuya getsinlər. Narahat olmayın, Rusiya sərhədinə beş-on kilometr qala-qalmaya, bərbad yol özü yuxudan ayıldacaq sizi. Marşrutun bu hissəsində yol təmir işləri illərlə davam edib, hələ də qurtarmaq bilmir. Sərnişinlərin həmişə haqlı iradlarına səbəb olur.**



# Əhali oğlunu əsgər göndərmək üçün rüşvət verir - əməkdaşlarımız Dərbənddən yazır

## Sərhəddəki bezdirici prosedurlar aradan qalxmaq bilmir; Azərbaycan nömrə nişanlı maşınla Dərbəndə getmək niyə məsləhət deyil?

Rusiya sərhədinə yaxınlaşmağın bir başqa siqnalı isə, radioefirdə xaosun artmağıdır. Azərbaycan radiolarının səsi burda qəfil kəsilir. Başlayır kəsik-kəsik gəlməyə. Araya qısa pauzalar soxulur. Sonra sən, rus dilinin Azərbaycan türkcəsini efirdə üstələdiyini eşidəcəksən.

"Akula" santexnika salonunun reklam çarxları radioqəbuledicini silkələyəndə isə narahatlığın, nəhayət, bitəcək - biləcəksən ki, şükür, artıq Dərbənddəsən. Sonrakı reklam elanını eşidincə, gözlərin çıxacaq kəllənə - "Tələsin! 25 dekabrda Niyaməddin Musayev, Dərbənddə öz yeni il repertuarı ilə çıxış edəcək, pərəstəşkarlarını sevindirəcək. Biletlər..."

Avropa standartlarına öyrəşmiş səyyahlara burda nələrsə xoş gəlməyə bilər - məsələn, sovet rəmzi sayılan tinli (qranyonnı) stəkanlar burda hələ də işləkdir. Burda keçmişə - şirinli-acılı, ağ-qara sovet dönəminə qayıtmağa hər cür münbit şərait var.

Ancaq neynək. Zamanın çərxi bir yerdə durmur. Dəyişir. Tinli sovet stəkanlarını unutmaqda deyəsən biz azca tələsmişik. Sən demə, bu stəkanların həmişə geriyə qayıtmaq, öz əvvəlki hökmünü həyatımızda bərpa etmək qüdrəti də varmış.

Aha...bir vacib xəbəri az qala unutacaqdıq - naviqatora görə, Bakı-Dərbənd yolunun cəmi 3 saatlıq ömrü var. Ancaq nəbadə buna aldanıb Dərbəndə yola çıxasız. Yol, üç yoxxxx...altı saat vaxtınızı rahatcana hop edib udacaq, səyahət eşqinizi öləzidəcək. Səbəb, sərhəd-keçid məntəqəsindəki nəzarətçilərin özbaşnalığı və varlanmaq ehtirasıdır. Gürcüstan səyahətindən sonra nəhəng Rusiya çöllərinə Azərbaycan nömrə nişanlı avtomobillə keçmək əsəbləri əməlli-başlı tarıma çəkir. Təsəvvür edin ki, 4-5 dəqiqəyə, maşından belə düşmədən Gürcüstan sərhədini keçə bilirsizsə, Rusiya sərhədində bu müddət 2-3 saata qədər uzana bilər. Gürcüstan sərhədini maşından belə düşmədən dönər köşklərini xatırladan pəncərələrdəki kameralarda qeydiyyata düşməklə keçirsənsə, Rusiya sərhədində bunu heç ağlına da gətirmə. Dəmir körpüdən keçib, dəmir qapıların qarşısında düşüb maşının bütün qapılarını açıb kənarda durub sərhədçinin naz-qəmzə ilə maşına baxış keçirməsini gözləməlisən. Yaxşısı əsəbini basıb, əl-ayağın soyuqdan donsa da, prosedurun sona çatmasını gözləməlisən. Elə bilirsən bununla ucsuz-bucaqsız Rusiya çöllərinə qapılar üzünə açıldı?

Tələsmə, taleyində qarşıdakı gömrük postunda maşınqarışıq "həbs" də var. Sərhəddəki dəmir qəfəsə xoş-naxoş girməli, gömrük bəyannaməsini gömrükçülərdən almalısan. Bundan əvvəl sərhəddəki prosedurdan bir də keçməlisən. Maşından düş, qapıları aç, kənarda dayan, bax. Yoxlama başa çatdısa, dəmir qəfəsin əks tərəfindəki qapı açılır. Bu qapı 2-ci qəfəsin içindir. Burada 12 bənddən ibarət olan bəyannaməni alıb doldurmalısan. 2 nüsxədir, birini gömrükçüyə verib, o birini özündə saxlamalısan. Başqa yol olmadığından belə də edirəm - eni 3, uzunu 2 metr olan dəmirdən hazırlanmış vaqon-kabinetin bağlı pəncərəsini döyürəm. Səs-səmir yoxdur. Amma içəridə hərəkətlilik var. Məcbur olub qapını tıqqıldadıram. Amiranə səslə "voydite" sözləri qulaqlarımda cingildəyir. Arxası qapıya oturmuş gömrükçü üzünü belə çevirmədən "çto nado" sözünü tullayır. Bəyannamədən başqa nə istəyə bilərəm ki sualını verməyi artıq bilirəm. Üzü qapıya oturub od kimi qızarmış sobanın istisindən yanaqları qızarmış bir başqası "deklarasiya sotoit sto rubley" deyir. Özümü eşitməzliyə vurub 2 bəyannaməni götürürəm. Elə oradaca doldurub qaytarmaq, nəhayət, bu uzun, üzücü prosesdən yaxa qurtarmaq istəyirəm. Alınmır. Çöldəki bumbuz, yarımçıq stul-məlumat lövhəsinin üzərində qələm axtsarışlarım nəticə vermir. Həmid soyuqdan buzlamış eynəyinin üzərindəki buxar qatını təmizləyib çantasından bir neçə qələm çıxarır. Yarıqaranlıq lövhədən asılan bəyannamə nümunələrini birtəhər oxuyub uyğun olaraq qarşımdakı bəyannaməni doldururam. Gömrükçüyə verib, qapıların üzümə açılacağını gözləyirəm. Məlum olur ki, gömrükçü maşınla Rusiya ərazisinə keçməyimə razı deyil. Səbəb isə maşına aid sənədlərin rus dilinə tərcümə edilməməsidir. Ümumdünya Gömrük Təşkilatının bu məsələni tənzimləyən, bir sözlə, etibarnamənin tərcüməsini lüzümsuz edən qərarını xatırlatmağım da vəziyyəti dəyişmir. Gömrükçü bəyannaməni çevirib arxa tərəfində yazır ki, maşın Rusiya ərazisinə buraxıla bilməz. Cibindən möhürü çıxarıb üzərinə üfürür və bəyannamədə yazdıqlarının üzərinə basıb ikinci nüsxəsində də eyni hərəkətləri təkrarlayır.

Yadıma düşür ki, az əvvəl bu kağız parçalarının hər birini 100 rus rubluna mənə təklif etmişdilər. Bu da heç nəyi dəyişmir, gömrükçü israrla etibarnaməni tərcümə olunmuş şəkildə təqdim etməyimi istəyir. Deyir ki, get harada istəyirsən tərcümə elətdir, notariusa təsdiqə ver, gətir, maşının sür, get. Gecə yarısı bunu necə edə biləcəyim haqda sualı cavablandırmaq heç ağlına da gəlmir. Bu zaman qapı açılır, gömrükçü formasında biri içəri girib qulağına nəsə pıçıldayır. Bayaqkı görkəmi gömrükçünü tərk edir, möhürlədiyi bəyannaməni kənara tullayıb yenisini əvəzimdən özü yazır. Tələsik mənə uzadıb, yaxşı yol deməyi də unutmur. Nə baş verdiyini vaqon-kabinetdən çıxandan sonra öyrənirəm. Bizimlə sərhədi keçən həmyerlimiz kimlərinsə adını çəkibmiş və həmin adamın yaxını olduğumuzu gömrükçülərə deyibmiş. Onun bu kiçik xatırlatması bizi uzun, yorucu prosesdən qurtarıbmış. Beləcə, böyük Rusiya yolunun üzərindəki sonuncu qəfəsin qapısı üzümüzə açılır...

Dərbəndə çataçatda polis postlarının hər birində bizi saxlayıb sənədlərimizi az qala lupa ilə yoxlayıb yola salırlar. Sonrakı günlərdə də Dərbənd küçələrində rastlaşdığımız hər 10 yol patrul xidməti maşınından az qala hər birinin ekipajı maşınımızı saxlamağı, pozmadığımız qaydalar haqda uzun-uzadı mülahizələr söyləməyi özlərinə borc bilirlər.

Məsləhət belədir - çalışın Azərbaycan nömrə nişanlı avtomobillə Dərbənd tərəfə getməyin.

Gecəyarısı çatdığımız oteldə kanalizasiya iyi baş çatladır. Xidmətçi qadın bunun səbəbini izah etməkdə acizlik göstərir. Aramızda canlı, səmimi söhbət başladı. Bəlli oldu ki, bəs əvvəllər Dağıstanda, o cümlədən Dərbənddə əsgərliyə getməməkdən ötrü rüşvət verirdilərsə, indi vəziyyət tam tərsinədir. Yuxarılarda əlaqən olmasa, oğlun hərbi kazarmaların üzünə həsrət də qala bilər.





- Bəli. Çoxdan belədir. Uşaqlarımızı, bilmirik niyə, daha hərbi qulluğa çağırmırlar. Gərək Rusiyaya gedib orda öz oğlunu qeydiyyata salasan. Ancaq bundan sonra bəlkə bəxtin gətirdi, övladını orduya götürdülər. O dey, doğmaca oğlum. Hərbi məktəbə girsə də, əsgərliyə çağırılmadı. Əsgərliyə getməyən isə bu gün karyera pilləkanında yuxarı çox da dırmana bilməz. Qalmışam mat-məəttəl. Bilmirəm nə edim.

Bəli, Dağıstan, Dərbənd əhli indi sanki yüz il əvvəlki azərbaycanlıların halını xatırladır. O vaxt da bədnam çarizm, lənətə gəlmiş mütləqiyyət müsəlmanları düşmən bilib, hərbi xidmətə çağırmaq istəmirdi. İndi, şükür, biz bunu arxada buraxdıq. Dağıstan isə indi öz həyatında təkcə bu ağrını deyil, başqa acıları da yaşayır.

- Bakıda tekstil ucuzdu burdakına nisbətdə. Gətirib burda satanlar çoxdu indi. Əvəzində ərzaq aparırlar burdan Azərbaycana. Yağ, çay, qənd, pendir, ət, kolbasa məmulatları...

Dərbəndə pul gətirən bir başqa prespektiv sahə turizmdir. Turistlərin içində çeçenlər çoxluq təşkil edirlər.

- Yayda gələrlər adətən. Əksər vaxt da rus gözəlləriylə birgə. Pul xərcləməkdən çəkinməzlər.

- Bəs Azərbaycan turistlərini necə, yay-qış fərqi yoxdur, görmək istəmirsizmi Dağıstan torpağında?

- Bura Azərbaycandan əsasən alverçilər, bir də tələbələr gəlir. Turist-filan görmədik hələ ki aralarında. Gəlmək istəsələr, buyursunlar. Gözümüz üstə yerləri var. Rus, çeçen turistlərindən sonra qoy bura sizinkilər də gəlsin. Biznes inkişaf etsin.

***

Qərara gəldik, əsgərlik mövzusunun cavabını peşəkarlardan, jurnalist həmkarlarımızdan eşidək. Tezliklə, şükür, buna müvəffəq olduq. "Daqestanskie oqni" qəzetinin baş redaktoru, həmyerlimiz Məhəmməd Xanməhəmmədov sualımızı eşidincə, başqaları kimi çaşmadı. Tam tərsinə, böyük şövqlə, ehtirasla sualımıza cavab verdi:

- Hə... İndi Dağıstan bir çox ciddi problemlərlə təkbətək qalıb ki, bunların içində ən ağrılısı ümumi hərbi xidmətin indi olmamasıdır. Bəli, daha sizdən nə gizlin, bu, ağrılı mövzudu. Əslində Dağıstan, hər il orduya təxminən 300 minədək hərbi çağırışçı göndərmək imkanındadır. Ancaq...

Cavabının bu yerində həmkarımızın susmağı bizə çox mənalı göründü.

- Ancaq nə?- deyib, Məhəmmədi mövzunu davam etməyə çağırdıq.

- Ancaq əslində indi bizdə əsgərliyə gedənlərin dəqiq statistikası, belə deyək, aparılmır. Biri deyir, ildə min gənc ordu sıralarına qatılır. Digərləri bu rəqəmi hətta 200-300 nəfərəcən azaldırlar. Doğrusunu heç kim bilmir.

- Kafedə gördüyümüz bir qadın şikayət edir ki, oğlunun hərbi məktəbi bitirməyi də müsbət nəticələnməyib. Uşağı əskərliyə çağırmayıblar. Anası məcbur qalıb Rusiyaya gedib, oğlunu orda qeydiyyata aldırsın. Ancaq bu da hələ məsələnin gələcəkdə müsbət həll ediləcəyinə zəmanət vermir.

Məhəmməd dərindən ah çəkərək keçir mövzunun xırdalıqlarına.

- Problem həm də gəlib dirənir bir məsələyə ki, indi Rusiya ordusu müqavilə sisteminə keçir. Daha çox ali təhsillilərə, sürücülük vəsiqəsi olanlara...həəəə, az qala unutmuşdum, pulu olanlara üstünlük verirlər.

- Yəni, sizdə camaat oğlunu əsgər göndərməkdən ötrü əlini cibinə salır, həə?

Sualımız bir an göydə qalıb, axır öz cavabını qazanır.

- Gülməli olsa da, bu, belədi.

- Müqaviləylə əsgərlik çəkənlər nə qədər pul alırlar?

- Ayda alacağınız 70-80 min rubl müqabilində orduyla müqavilə imzalayırsan. Üstə gəl, ezamiyyət xərcləri, qaynar nöqtələrdə iştirak...Yaxşı qazanc verir bu bəxtigətirənlərə... Misal üçün, Dağıstanda bir neçə kadet məktəbi var, onlardan biri də məhz Dərbənddədir. Kaspiyskidəki kadet məktəbi hətta hərbi-dəniz təyinatlıdır. Ancaq noolsun...

Qəfildən tanımadıqlarımızdan birisi Xanməhəmmədovu kənara itələyərək başını gözümüzə soxur. Söhbətimizə ştrix əlavə edib, tez də gözdən itməyi bacarır:

- Kimi 20 min verir əsgərliyə düşsün deyə, kimi hətta 200 min. De dəəə...qorxma... de ki, hərbi komissarlıqlara, tibb komissiyalarına yem qoyublar da bu sahəni...

Məhəmməd Xanməhəmmədovu - vəhabilərlə vuruşan məşhur "Kavpolit" saytının ən iti qələm sahibini, qorxaqlıqda ittiham etmək, düzdü, insafdan deyildi. Beləlləri Dağıstanda çox olmasalar da, az da deyillər. Dağıstanın əsl əsgərləri, cəngavərləri də məhz belə insanlardı. Nooolsun ki, dağıstanlıların bir çoxu kimi ordu sıralarına çağırılmayıblar. Saqqallı vəhabilərlə gedən döyüşlərdən heç vaxt kənarda qalmayıb Xanməhəmmədov kimilər. Sıralarındakı qurbanları, inanın, saymaqla qurtarmaz.

İndi o gərgin, vahiməli günlər sanki arxada qalıb. Ölkədə sülh, əmin-amanlıq bərpa olunmaqdadır. Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun elan etdiyi şüarlardan, layihələrdən birinin məhz "Təhlükəsiz Dağıstan" adlandırılmağı da bizcə təsadüfü deyil.

Dağıstanda indi sərbəst, təhlükə duymadan gəzməyimiz də görünür Abdulatipovun məhz bu xidməti sayəsində mümkün olub. Fürsətdən istifadə edərək Dağıstanı gəzmək, müxtəlif mövzularla yaxından tanış olmaq istəyirik.

*(Ardı gələn sayımızda)*

**❑ "Yeni Müsavat"ın reportyor qrupu**

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

# Yararsız ağaclardan möhtəşəm əsərlər yaradan Zindani

## Qasım bəy Zakirin nəslindən olan heykəltəraş: "Baxdım ki, təndirxananın yanına bir ağac qırıb atıblar, götürüb gəldim, başladım üzərində işləməyə..."

**İçərişəhərdə şənbə günü təşkil edilən yarmarkada gördüyüm əsərlər diqqətimi çəkdiyindən əl işlərinin müəllifini soruşdum. Çadırın içərisindən gələn saqqalını görəndə əvvəlcə yaşlı olduğunu zənn elədim. Ancaq söhbət əsnasında məlum oldu ki, cəmi 38 yaşı varmış. Dediyinə görə, Qasım bəy Zakirin nəslindəndir.**

Adəm Zindani ağac üzərində heykəltəraşdır. Ağdam şəhərində anadan olan Adəm bəy 2012-ci ildə böhtana məruz qaldığı üçün 3 il həbsdə yatdığını da deyir. Elə buna görə də həbsdən çıxandan sonra "Zindani" təxəllüsünü götürüb Adəm İsmayılov. Gənc yaşında ailə qursa da, iki evliliyi uğursuzluğa düçar olub. Üçüncü dəfə isə elə bu ilin yazında ailə qurub, "artıq xoşbəxtəm, inşallah bu, sonuncu olar" deyir.

Şəxsi ailəsi ilə bağlı söhbətləri bir kənara qoyub sənətdən danışırıq. Deyir 17 ilin fotoqrafıdır: "Ən çox sevdiyim peşə fotoqrafiyadır. 6 yaşından rəsmlər çəkməyə başlamışdım. Allah istedad vermişdi. Daha sonra fotoqrafiyaya keçdim. Bu, tükənməz bir sənətdir, hər gün yeni bir ixtira ola bilər. Eyni zamanda mən özümü rəsm və fotoqrafiya ilə yanaşı, taxta oymaçılığında və ağac üzərində heykəltəraşlıqda mükəmməl biri kimi görürəm". Adəm Zindanini nə hansısa sənət məktəbini bitirib, nə də müəllimi olub: "Heç orta məktəbi bitirməmişəm, yarımçıq çıxmışam".

Bu ilin əvvəllərində isə iş ardınca Tiflisə gedibmiş: "Mən orda fotoqraf kimi çalışmaq istəyirdim. Ona görə də bir gün durub getdim ora. Gürcüstan kasıb dövlətdir. Ancaq nəinki peşəmə uyğun, heç bir yerdə başqa bir iş də tapa bilmədim. Boş yerə kirayə pulu verdim, sonra qayıtdım geri".

Qayıdandan sonra yeni fəaliyyətinə başlayıb: "Günlərin bir günü yolla gedirdim. Gördüm ki, təndirxananın yanına bir ağac qırıb atıblar. Götürüb gəldim, başladım üzərində işləməyə... Apreldə də bu işə başladım, dedim necə ola bilər ki, mən bu işi bacarmayım. Beləliklə, ağac üzərində heykəltəraşlığa başladım. Azərbaycanda bunu dəqiq bilmirlər. Oymaçılıqla ağac üzərində heykəltəraşlıq tamam başqa sənətlərdir. İlk işimdən bəri bircə dəfə də olsun, nə isə nöqsanım, yaxud sındırıb, əydiyim olmayıb".

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycanda bu sahə ilə məşğul olan yoxdur: "Mən çox araşdırmışam. Çox güman ki, mən bu sahənin ilk nümayəndəsiyəm. Taxta üzərində belə əsərləri yaradanlar rastıma çıxmayıb. Hətta 30-40 il əvvəli araşdırmışam, ağaclar üzərində bunu heç kim etməmişdi, daha əvvəlki illəri deyə bilmərəm".

İlk əl işinə gəldikdə, deyir ki, yaratdığı əsərdəki adamı Dədə Qorquda bənzədənlər çox olub: "Yaşlı bir kişinin heykəli idi. Uzunluğu bir metrə çatan əsər idi, çünki onun saqqalı uzun idi.











Balta ilə ağacı vurub cırmışdılar, saqqalın uzandığı görüntüsü alınmışdı". Elə ilk qazancı da həmin işdən olub: "Təzə bazarda 20 manata satdım. 25-ə qoymuşdum, 20-yə satdım".

Deyir əl işləri çox da baha olmur: "Ən baha işim 50 manata olub. Bax, bu qəlyanlı kişini 50-yə satıram. (Yazı çapa hazırlananda Adəm bəy zəng edib dedi ki, qəlyanlı kişini artıq satıb: "Bir xarici vətəndaş dəyər verdi. Bizimkilərdən fərqli olaraq endirim-mendirim demədi, 50 manat verib aldı" - E.P.)

Həmin heykəlin ağacını İsmayıllıdan tapıbmış. Ümumiyyətlə, hansısa ağac parçasını görəndə həmin andaca nə düzəldəcəyi barədə götür-qoy edir: "Mən çayın, ya dənizin qırağından hər tapdığımı gətirsəm, evi odunla dolduraram. Ona görə də əvvəlcə nə işlədəcəyimi dəqiqləşdirirəm. Əvvəlcə şəkillərə baxıb onun əksini odunun üzərində çəkirəm, sonra oymağa başlayıram".

Əsərlərini nə qədər vaxta ərsəyə gətirdiyini soruşuram.

- Mən adətən axşam saat 8-də işə başlayıram, 12-yə, 1-ə kimi rahat işləyirəm. İşlərimin ən qısası 1 saat olub, ən çox üzərində işlədiyim əl işi isə 2 gün çəkib. Yaş ağac olduğuna görə çox çəkib. Bu bir hindunun əksidir, buna hər baxanda ürəyim ağrıyır (Əli ilə göstərib gülür-E.P.)

Adəm Zindani daha çox bıçaqlarla işləyir: "Hərdən olur ki, rəngdən də istifadə edirəm. "Lak" vurmağa üstünlük vermirəm, çünki əsəri korlayır. Ən rahat ağac materialı isə bərk ağacdır. Bəlkə də mən tərs danışıram. Amma bərk ağacı parıldatmaq da asandır, oymaq da. Yumşaq ağac isə tez qırılır. Bərk ağaclar ərik, palıd, gilasdır. Amma ən yumşaq qovaqdır, tozağacıdır".

Əsərlərində vahiməli adamların üstünlük təşkil etdiyini deyəndə gülür: "Mənim daimi müştərim olan bir xanım var, o gün gəlib məzəli, yumoristik simaları götürdü. Həmişə gülərüz simalar olmur ki..."

Aldığı sifarişlər də olur: "Bu yaxınlarda bir nəfərlə görüşdük, mücrülər sifariş etdi". Xaricilər üçün milli qəhrəmanlar, həmçinin milli atributlarla bağlı sifarişlər alır. İndiyə qədər təxminən 400-ə yaxın əsər işləyib. Qazancına gəldikdə, "ən maksimal qiymət 15 manatdır. Bu gün məbləği bir az qaldırdım. Dedim heç olmasa dolanışığıma təsir eləsin. Təbii ki, mən super həyat yaşamıram. Amma artıq iki ay olar ki, tələbatımı ödəyə bilirəm. Əsas odur ki, mən öz qüvvəmlə, qabiliyyətimlə irəli gedirəm. Mən həbsxanadan çıxdım, amma özüm-özümü saxlamağı bacardım. Qazamatdan çıxandan sonra 5 ay heç kimlə danışmadım, kimsə ilə ünsiyyət qurmaq istəmirdim. Təbii ki, hansısa pis yol ağlımdan keçməzdi. Kimsə məni bu yola çəkə də bilməzdi. Sonra düşündüm, həyatımı qurdum. Mən çətinliklə də olsa, yarıac, yarıtox vəziyyətdə yaşasam da, Allaha çox şükür, demək olar, hər şeyim var. Kirayə qalsam da, buna görə darıxmıram. İçərişəhərdə 150 manata kirayə qalıram. Əsas istəyim əsərlərimi Avropada tanıtmaq, Azərbaycan adına çıxış etməkdir..."

❑ **Elşad PAŞASOY**
❑ **FOTO: MÜƏLLİFindir**



# Suriya ermənilərinin Zəngilanın Xanlıq kəndində nə işi var?

**Ermənistandan Suriyadan qaçan erməni ailələrinin bir hissəsini Azərbaycanın işğal altında olan ərazilərində yerləşdirdiyi məlumdur. Əslində Suriyadakı müharibənin alovları ermənilərin sıx yaşadıqları şəhər və qəsəbələri bürüyəndə dünya erməni mafiyası bunu Azərbaycanın işğal altındakı ərazilərində məskunlaşdırmanı genişləndirmək üçün fürsət kimi görürdülər və planlaşdırırdı ki, on minlərlə erməni bu ərazilərdə məskunlaşdırılsın.**

Lakin bir tərəfdən Dağlıq Qarabağda hökm sürən iqtisadi səfalət, digər tərəfdən münaqişə zonasında son illər gərginliyin xeyli artması Suriya ermənilərini bu ərazilərdə kütləvi məskunlaşmaqdan çəkindirdi. Bununla belə bir neçə yüz erməni ailəsinin Qarabağda yerləşdirilməsi baş tutub və erməni diasporunun ianələri hesabına onlara evlər tikilib. Məsələn, işğal altındakı olan Zəngilan rayonunun Xanlıq kəndinin adını "İşxanadzor" qoyan ermənilər bu kənddə bir neçə Suriya erməni ailəsini məskunlaşdırıblar. Və Almaniyanın "Deutschlandfunk" qəzetinin müxbiri Naomi Konrad həmin ərazilərdə olaraq Suriya ermənilərinin Azərbaycana məxsus bu ərazilərdə necə yaşadığını araşdırıb.

Jurnalist yazır ki, kəndin xarabalıqları arasında 100-ə qədər yeni tikilmiş ev gözə dəyir. Qışda bəzən günlərlə ətraf aləmdən təcrid olan kənddə Suriya erməniləri də məskunlaşdırılıb. Onlardan biri Ayk Xaçaturyan deyir ki, Suriyada həkim işləyirdi və yaraqlılar onu tutanda müsəlmanlığı qəbul etməyi tələb ediblər, əks halda başını kəsəcəklərini deyiblər. Bununla belə Xaçaturyanı bir neçə saat sonra buraxıblar və o, dərhal ailəsini də götürüb Qarabağa köçür. İndi Xaçaturyan Azərbaycan kəndində tikilmiş xəstəxanada işləyir.

Kənddə Suriyadan və Livandan olan 20 erməni ailəsi yaşayır. Qarabağda məskunlaşdırılan suriyalı erməni ailələrinin sayı isə cəmi 100-ə yaxındır. Qəzet yazır ki, bu ilin aprelində Qarabağda döyüşlər başlayanda Suriya ermənisi Xaçaturyan da könüllülərin dəstəsində ön xəttə yollanıb. Xaçaturyan və digər Suriya erməniləri ona görə başqa suriyalılar kimi Avropaya deyil, Qarabağa qaçıblar ki, onun dediyi kimi, burada "hökumət" onlara hər cür dəstək verir, ev tikir.

İrəvandakı Qafqaz İnstitutunun direktoru Aleksandr İsgəndəryan deyir ki, Suriya erməniləri sülh danışıqlarının nəticələrinə əsasən Azərbaycana qaytarılmalı olan ərazilərdə, yəni Dağlıq Qarabağ ətrafındakı rayonlarda məskunlaşdırılır. Ancaq onun fikrincə, Dağlıq Qarabağın özünün razılığı olmadan bu əraziləri qaytarmaq çətin məsələdir. İsgəndəryan deyir ki, Azərbaycan bu ərazilərdə məskunlaşmaya qarşı çıxır və bu aydındır.

Dağlıq Qarabağın qondarma "baş nazirinin" köməkçisi Artak Bəylər· yan isə Suriya ermənilərinin danışıqların şərtinə görə Azərbaycana qaytarılmalı olan Zəngilan rayonunda və digər ətraf ərazilərdə nədən məskunlaşdırıldığı barədə jurnalistin sualına cavab verərkən deyir ki, həmin ərazilər "Dağlıq Qarabağ respublikasına" məxsusdur. Çünki "konstitusiyada" belə yazılıb. "Biz hansısa regionun qaytarılması barədə danışıqlar aparmırıq" - separatçı rejimin nümayəndəsi deyir. Bəyləryan gizlətmir ki, bu ərazilərdə məskunlaşdırmaqda aparmaqda məqsəd həmin torpaqların ermənilərə məxsusluğu haqda zəmin hazırlamağa xidmət edir. "Nə qədər çox adam yaşasa deməli torpaqlar üzərində də daha çox hüquq yaranacaq"- o deyir.

Xatırladaq ki, rəsmi Bakı Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində qanunsuz məskunlaşma aparmasını beynəlxalq təşkilatlar və həmsədrlər qarşısında dəfələrlə qaldırıb. Görünür Azərbaycan tərəfi bu məsələdə diplomatik fəallığı daha da gücləndirməli və birmənalı şəkildə bildirməlidir ki, mümkün hərbi əməliyyatlar zamanı mülki əhalinin hədəf alınmaması barədə öhdəlik Qarabağda qanunsuz məskunlaşdırılan ermənilərə şamil edilməyəcək (Virtualaz.org)

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

# Qarabağ qazisi övlad qatili oldu

## Salyanda atanın qızını qətlə yetirdiyi ailənin qan donduran hekayəti





**4 gün əvvəl Salyan rayonunun Xurşud kənd sakini, 18 yaşlı Fərqanə Əsədovanı qətlə yetirən atası Rauf Əsədov 2-ci qrup Qarabağ əlili imiş. Bu barədə virtualaz.org saytının Şirvan bürosuna məlumatı mərhum qızın yas yerində əmisi Babək Əsədov verib.**

B.Əsədov deyib ki, qardaşı, 1975-ci il təvəllüdlü Rauf orta məktəbdə əlaçı şagird olub. Amma sonralar təhsilini davam etdirməyib, sürücü-mexanik peşəsinə yiyələnib. Kənd təsərrüfatı texnikalarının təmiri üzrə ən yaxşı ustalardan sayılırmış.

Ailə həyatı qurub. Kiçiyi 10, böyüyü 20 yaşında olan 5 uşaq atası olub. Evləri olmadığından kənddəki istifadəsiz köhnə məktəb binası məskunlaşmaq üçün onlara verilibmiş. Elə qətl hadisəsi də burada baş verib.

Rauf Əsədov 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərin birində ağır yaralanaraq 2-ci qrup əlil olub. Elə o vaxtdan da əsəb sarsıntısı keçirdiyindən psixolji problemləri yaranıb, içkiyə və narkotikə qurşanıb. Nəticədə iki dəfəyə 10 ildən yuxarı məhkumluq həyatı yaşayıb. Bir dəfə dava-dalaş , bir dəfə isə narkotikə görə cəza çəkib.

Qardaşı deyir ki, Rauf bəzən bir həftə düzəlib “ağıllı-başlı ” adam olurdu, sonra yenə aqressiv duruma düşürdü və səbəbsiz yerə dava-dalaş salırdı. Bir ay əvvəl - dörd il yarım həbs çəkəndən sonra azadlığa çıxıbmış.

Saytın digər mənbələrdən əldə etdiyi məlumata görə, həbsdən qayıdan Rauf həyat yoldaşını döyüb-söyərək incitdiyindən qadın atası evinə gedibmiş. Ailədə hələ Raufun həbsindən əvvəl də münaqişə yaşanırmış və hətta Əsədovlar ailəsi münaqişəli ailə kimi polisdə qeydiyyatda imiş. Belə ki, bir neçə gün əvvəl Rauf qızı Fərqanənin üzərinə qaynar çaydan ataraq xəsarət yetirdiyinə görə polisdə araşdırma aparılırmış. Hadisədən 1 gün əvvəl isə atası Fərqanəni rayon mərkəzinə apararaq onun üçün xeyli əyin-baş alıb. Amma evə qayıdan axşamı bıçaqla vuraraq əvvəlcə yaralayıb, bir qədər keçdikdən sonra isə yaralı qızı 2-ci bıçaq zərbəsi ilə ürəyindən vuraraq qətlə yetirib.

Deyilənə görə, Rauf həmin axşam 2 şüşə araq içibmiş... Qızını öldürən sərxoş ata gecə saat 3 radələrində ağlaya-ağlaya oğlu, 17 yaşlı Əkbəri yuxudan oyadıb ki, “Fərqanəni qətlə yetirmişəm”. Əkbər isə, atası həbsxanadan yenicə çıxdığından, polisə gəlib və qətli üzərinə götürüb. Amma hüquq-mühafizə orqanlarının apardığı istintaq-əməliyyat tədbirləri nəticəsində Rauf Əsədov qızını sinə nahiyəsindən 2 dəfə bıçaqla vuraraq qətlə yetirdiyini etiraf edib.

Onu da qeyd edək ki, Əsədovlar ailəsi çox mühafizəkardır. Belə ki, göstərməyə Fərqanənin bir şəklinin belə olmadığını bildiriblər. Hətta qızın məzarındakı nişan taxtası üzərində ad və soyadı da yazılmayıb...

Faktla bağlı Salyan Rayon Prokurorluğunda cinayət işi qaldırılıb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Mənzil bazarında bahalaşma gözlənilmir - ekspertdən maraqlı şərh

**Tarif Şurasının qərarı ilə təbii qazın və elektrik enerjisinin qiymətlərinin artırılması növbəti bahalaşmasnın əsasını qoyub. Bu barədə ekspertlər şərh bildirir. Şərhlərə görə, getdikcə ölkədə sosial gərginlik artacaq, hər sahə üzrə böhran müşayiət olunacaq.**

Bəs görəsən daşınmaz əmlak bazarında bahalaşma gözlənilirmi? Əmlak ekspertlərinə görə, ölkə iqtisadiyyatda baş verən son proseslər, manatın hər dəfə dəyərdən düşməsi, insanların gəlirlərinin azalması bazarda gözə çarpacaq dərəcədə durğunluq yaradıb, mənzil alqı-satqısında passivlik hökm sürür.

“Daşınmaz əmlak bazarında qiymətlər azalan istiqamətdədir”. Bu sözləri iqtisadçı ekspert Rəşad Həsənov “Yeni Müsavat”a açıqlamasında bildirib. İqtisadçı qeyd edib ki, bu cür tendensiya bundan sonra da davam edəcək: “Bahalaşma ilə bağlı əslində hazırda daha çox istehlak bazarındakı qiymətlərdən söhbət gedir, çünki daha çox gündəlik tələbatların qiymətlərinin artımı bu və ya digər xidmətlərin qiymətlərində artımından bahalaşma olacağı bildirilir. Daşınmaz əmlakın özünə məxsus xüsusiyyətləri var. Hazırda daşınmaz əmlak bazarında aktivlik kəskin surətdə azalıb. Və bu, qiymətlərin artımı qarşısında dayanan ən böyük mane oldu. Əksinə, daşınmaz əmlak bazarında qiymətlər azalan istiqamətdədir və bu tendensiya bundan sonra da davam edəcək. Düşünürəm ki, Mənzil İnşası Dövlət Agentliyinin sosial mənzillərin inşasına başlamasının bazara öz təsiri olacaq. Hazırkı şərtlər daxilində kommunal xidmətlərin və digər sahələrdə qiymətlərin artırılmasından asılı olmayaraq hesab edirəm ki, 2017-ci ildə də qiymətlər azalan tempdə davam edəcək”.

İqtisadçı kirayə bazarında bəzi dəyişikliklər olacağını istisna etdi: “Adətən Azərbaycanda kirayə haqqı ilə kommunal xidmətləri arasında fərq olur. Belə ki, kommunal haqqını mənzili kirayə götürən şəxs ödəyir. Bu halda qiymətlərdə artım böyük ehtimalla baş verməyəcək. Amma hansı ki, kirayə ilə bağlı müqavilədə tam xidmət göstərilirsə və kommunal xərcləri də şərtlərə daxil edilirsə, belə olduğu təqdirdə mənzili kirayə verən tərəf qiymətləri artıra bilər və bu, gözləniləndir”.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 270 (6591) 5 dekabr 2016

**Elə gün olmur ki, dünya mətbuatı hansısa Avropa ölkəsində və ya yaxın Rusiyada qeyri-millətlərdən, qeyri-dinlərdən olan insanlara qarşı törədilən hücumdan və ya zorakılıqdan yazmasın. Dünya sözün böyük mənasında dini və milli dözümsüzlükdən əziyyət çəkir. Bu, özünü miqrantların Avropa ölkələrinə son köçündə də göstərdi. Miqrantlara qarşı bir çox hallarda sərhədləri zorlayan aqressiya, hücum, eləcə də zorakılıq əlamətləri dünya mətbuatının ən çox müzakirə etdiyi mövzulardan oldu. "Yeni Müsavat" da hadisələrin qaynar dönəmində Avropanın qaçqın düşərgələrinə etdiyi səfər zamanı sözügedən mənzərəni aydınlığı ilə oxucularına təsvir etdi.**

# Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

## Azərbaycan dini dözümlülük məsələsində dünyaya necə nümunə göstərdi?

### Tolerantlıq - bu problem ilk dəfə orta əsrlərdə yaranıb və günümüzə qədər davam edir...

Elmi ədəbiyyatlarda "tolerantlıq" - (lat. tolerancia - hərfən dözümlülük) - dini və milli müxtəlifliyin etirafı və ona hörmətlə yanaşılması kimi şərh edilib. Qərbdə tolerantlıq problemi ilk dəfə orta əsərlərdə yaranıb. İlk dövrlərdə bu, əxlaqi fəzilət, qeyri-xristian və yaxud bidətçi ehkam, ayin, inancların etirafı kimi nəzərdən keçirilib. Dini tolerantlığın geniş şəkildə şərh edilməsinə məşhur xristian ilahiyyat alimi Foma Akvinalının "Teologiyaların külliyatı" əsərində rast gəlmək olar.

Mədəniyyətin mühüm elementi olan ümumi tolerantlıq, bu gün müxtəlif inanc, mədəni ənənə, siyasi məslək daşı- yıcısı olan insanların ictimai vəhdətləşməsinin zəruri şərti kimi etiraf olunur. Tolerantlıq vətəndaş cəmiyyətinin əsas əxlaqi prinsipidir. Eyni zamanda, təcrübə göstərir ki, mütləq dözümlülük də öz növbəsində özbaşınalıq və zorakılığa yol açır: heç bir halda tolerantlıq şərə fürsət verməyə çevrilməməlidir. Qeyd etmək lazımdır ki, həm islama qədərki dövrdə, həm də islam dininin Azərbaycanda yayılmasından sonra müxtəlif etnosların yaşadığı bu ərazidə uzun illər qarşılıqlı etimada əsaslanan milli-mədəni və dini münasibətlər sistemi formalaşmış, insanlar əmin-amanlıq şəraitində yaşamış, burada yüksək tolerantlıq mühiti hökm sürmüşdür. Bu ərazidə tarixən müxtəlif dinlər və etnoslar arasında tolerantlıq mədəniyyətinin indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və islam dininin mühüm rolu olmuşdu.

Mövcud qanunlarımıza görə, respublikamızda hər bir kəs dinə münasibətini müəyyənləşdirməkdə, istədiyi dinə etiqad etməkdə sərbəstdir. Eyni zamanda, 49 dini etiqadların, dini ibadətlərin zor işlətməklə və ya insanlar arasında nifaq salmaqla təbliğ edilməsi qanunla qadağandır. Qanunda dini təhlükəsizliyin təmin edilməsi baxımından əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğatın qadağan edilməsi təsbit olunub. Qanunda həmçinin, göstərilir ki, ölkə vətəndaşlarının dinə münasibətlərindən asılı olmayaraq siyasi, iqtisadi, sosial və mədəni həyatın bütün sahələ- rində bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər.

### Tarixi faktlar - ölkəmizdəki kilsələr, sinaqoqlar və qeyri-dinlərə verilən böyük azadlıq...

Bu gün dünya əhalisinin sayı artıq 7 milyard nəfəri ötüb və onun 50 faizə qədəri səmavi və dünyəvi dinlərdə - İslam, xristianlıq, iudaizm və buddizmdə birləşib. Bunlardan ilk üçü səmavi, buddizm isə geniş coğrafiyada yayılmış qeyri-səmavi dinlərdən hesab olunur. Bu dinlərin hər biri Allahın vahidliyini, təkallahlığı qəbul edir və tolerantlığa, sülhə çağırır, israfçılığın əleyhinə çıxış edir. Səmavi dinlərin hər bir kitabına, Davudun "Zəbur"undan başlamış Musanın "Tövrat"ı, İsanın "İncil"i və Məhəmməd Peyğəmbər (s.ə.a.s) vasitəsilə Allah tərəfindən bizə nazil olunmuş "Qurani-Kərim"ə baxsaq, onlarda sülh, əmin-amanlıq, bərabərlik, qardaşlıq ideyalarını görə bilərik. Bu dini kitabların ən təkmili təbii ki, "Qurani-Kərim"dir.



Bəs Azərbaycan dini tolerantlığa hansı töhfələr verir? Faktlara diqqət edək: dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş məscid Azərbaycanın Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri olan Qafqaz Alban kilsəsi Azərbaycanın digər çoxəsrlik tarixi olan Şəki şəhərinin yaxınlığında yerləşir. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi - bütün bunlar Azərbaycanın mədəni irsinin tərkibidir.

Azərbaycan əhalisinin 96 faizini müsəlman, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edir. Respublikamızda 597 dini icma var, onlardan 21-i qeyri-müsəlman icmasıdır. Misal üçün, bütün dünyada dağ yəhudilərinin yığcam halda yaşadığı yeganə yaşayış məntəqəsi Azərbaycanın Quba rayonunda Qırmızı qəsəbədir.

Respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də Azərbaycan hökumətinin qayğısı ilə əhatə olunur. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ibrani bölməsi açılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Etnoqrafiya İnstitutu isə Rusiyanın yəhudi mədəniyyətinin qorunması və inkişafı fondu ilə birgə "Yəhudilər Azərbaycanda" kitabını hazırlayıb.

Ölkəmizin ərazisində yaşayan dağ yəhudiləri yerli əhali ilə sıx təmasda olsalar da, dinlərini, adət-ənənələrini, həyat və düşüncə tərzlərini qoruyub saxlayıblar. Xristianlıq isə Azərbaycan ərazisinə hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz edib. Sinayda aşkar edilmiş "Alban yazısında və alban dilində" leksionari dünyada xristianlığın ən qədim kütləvi qiraət kitablarından sayılır.Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunub. Bakıda ilk pravoslav kilsəsi 1815-ci ildə fəaliyyətə başlayıb.

Hələ XIX əsrin ikinci yarısında incilçi-lüteran kilsəsinin ardıcılları Bakıya neft yataqlarının istismarında iştirak edən alman sənayeçiləri sırasında gəliblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, əgər müstəqilliyinin ilk dövrlərində Azərbaycan dünyada gedən dinlər və mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı idisə, indi demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilib: "Azərbaycan beynəlxalq miqyasda dinlərarası dialoq mərkəzinə çevrilməkdədir. Bunun təsdiqi olaraq, son illərdə Dünya Dini Liderləri Sammitinin, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının Bakıda keçirilməsini qeyd etmək olar. Bundan başqa, Bakı 2009-cu ildə İslam Mədəniyyəti paytaxtı elan edilmişdi. İSESKO tərəfindən 2018-ci il üçün "Naxçıvan İslam mədəniyyətinin paytaxtı" elan edilib. Gəncə və Şəki də "İslam mədəniyyətinin paytaxtları" layihəsində iştirak edəcək. Bütün bunlar dünyanın ölkəmizə tolerantlığın yüksək səviyyədə inkişaf etdiyi məkan kimi etimad göstərməsinin nəticəsidir".

Bu günə qədər ölkədəki dini tolerantlıqla bağlı müsbət fikir söyləyən qeyri-din rəhbərlərinin açıqlamalarını da yada salaq.

Roma papası İoann Pavel deyib: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir".

Rum Patriarxı I Varfolomeyin ölkəmizə səfəri zamanı buradakı tolerantlığa verdiyi qiymət də çox maraqlıdır: «Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir. Azərbaycanı çox sevdim. Bu ölkənin rifahı və xoşbəxtliyi üçün hər zaman dua edəcəyəm».

Daha bir tarixi fakt. Bakıda Jan Mironosets pravoslav baş kafedral kilsəsini 1907-ci ildə Zeynalabdin Tağıyev inşa etdirib. Onun dəstəyi ilə Dağıstanda kumık dilində "Tanqn Çolpan" adlı jurnal nəşr olunurdu. Tağıyev maliyyə yardımı göstərdiyi onlarla qəzet və jurnallarda özünün tənqidinə rast gəlsə də mətbuata yardımını dayandırmırdı.

Vətəndaşlarımızın vicdan azadlığı hüququ birbaşa Konstitusiyamızda, geniş şəkildə isə «Dini etiqad azadlığı haqqında» qanunda təsbit olunmuşdur. Həmçinin, ölkədə tolerantlığı, dini dözümlülüyü möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb.

Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqlar deyil, eyni zamanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək verilir.

Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. XIX əsrin sonlarına yaxın Bakıda «Qızıllı kilsə» kimi tanınan «Aleksandr-Nevski» kilsəsinin inşası üçün toplanılmış ianənin böyük hissəsinin müsəlmanlar tərəfindən verilməsi dünya tolerantlıq tarixinin ən parlaq səhifəsidir.

Dini ekspert Kənan Rövşənoğlu da təsdiqləyir ki, Azərbaycanda dini tolerantlıq qədimdən mövcuddur. Onun sözlərinə görə, bunun təsdiqi olaraq tarix boyunca bizdə dini məzmunlu düşmənçilik, savaşın olmaqmasıdır: "Adətən belə şeylər xarici təsirlərlə olub, məsələn 17-ci əsrin əvvəllərindən Dağıstandan hücum edən tayfalar bura din şüarı ilə gəlmişdilər. Amma yerli camaatda dərin dini nifrət olmayıb. Bunun da bir sıra səbəbləri var. Avropadan fərqli olaraq Azərbaycanda dini tolerantlıqda dövlətlər arasında anlaşma deyil, bilavasitə xalqın özünün yanaşması rol oynayıb. Bu isə görünür Azərbaycanda tarixən etnik və dini müxtəlifliyin dərin olması ilə bağlıdır. Qədim inanclar, atəşpərəstlik, daha sonra xristianlıq, sonra islam hamısı Azərbaycana gəlib və özünə yer tapıb. Yəhudilik, fərqli xristian təriqətləri... bu qədər zənginlik içərisində azərbaycanlıların bir-birinə nifrət etməsi, dominant bir dini inancın digərlərini basqı altında saxlaması ənənəsi olmayıb. Yəni bir növ dövlət mərkəzli deyil, xalq mərkəzli olub".

Bir müddət öncə "Dini etiqad azadlığı haqqında" qanuna 13-14 əlavə və dəyişiklik edilib. Bu dəyişikliklər insanların dini inanclarını, onların dini ayinlərinin icrasını, məscid, sinaqoq və kilsədə fəaliyyətini məhdudlaşdırmağa yönəlməyib. Onların ana xəttində məhz dindən radikal, dağıdıcı, ekstremist məqsədlər üçün istifadəni məhdudlaşdırmaq dayanır. Bəzi ölkələrdə öz dini, milli ənənələrini, xüsusilə, dindən gələn, hətta klassik dini qaydaları qorumaq üçün qanunlar qəbul edilib. Avropanın bəzi ölkələrində belə nümunələr var. Yəni ölkələr öz tarixi keçmişini, milli adət-ənənələrini nəzərə alaraq bu ənənələrdən kənara çıxan, hansısa xırda qrupların təşviqat və təbliğatını məhdudlaşdırıblar. Xüsusilə, belə təcrübə xristian ölkələrində daha çoxdur. Xristianlıqda iki böyük cərəyan - katolik və pravoslavlar, bundan əlavə, protestantlar, lüteranlar, babtistlər, adventistlər var. Buddizmin də içində çoxlu cərəyanlar var. İslam və xristianlıqdan fərqli olaraq, buddizm öz daxilində yaranan cərəyanlara qarşı dini mərkəzləşdirmək üçün mübarizə aparmır. Lakin İslam və xristianlıq dini öz içərisində parçalanmanın qarşısını almaq üçün özünüqoruma instinktinə uyğun fəaliyyət göstərir.

❑ **Sevinc TELMANQIZI**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb**

YENİ MÜSAVAT
Son səhifə
N 270 (6591) 5 dekabr 2016



### 12 dəqiqəyə 191 toyuq qanadı yeyib

Amerikada keçirilən National Buffalo Wing festivalında toyuq qanadı yemək üzrə festival keçirilib. Lenta.ru saytının xəbərinə görə, Kaliforniya sakini Joi Çesnat 12 dəqiqə ərzində 191 toyuq qanadı yeməklə hamını heyrətə gətirib. Bundan öncəki rekordu 12 dəqiqə ərzində 183 toyuq qanadı yeməklə Sonya Tomas qazanmışdı. Amma bu Joi Çesnatın ilk rekordu deyil. O, bu ilin iyulunda 10 dəqiqə ərzində 65 hot doq yeyib. Xatırladaq ki, Joi artıq bu yarışma çərçivəsində 6 dəfə qalib olub.



### 3 aya 2012 litr kappuçino hazırladılar

Xorvatiyanın paytaxtı Zaqrebdə 2012 litr həcmində kappuçino hazırlanıb. Bu kappuçino da "Ginnesin rekordlar kitabı"na düşüb. "The Daily Telegraph" qəzetinin yazdığına görə, rekord kappuçinonun hazırlanması üçün 22 kofe maşını lazım gəlib ki, onu da şəhərin mərkəzi meydanında yerləşdiriblər. Mindən çox insanın iştirak etdiyi tədbirin sponsoru avstriyalı firma "Julius Meinl Group" olub. Rekord sözügedən kampaniyanın 2012-ci ildəki 150 illik yubileyi münasibətilə keçirilib. Ən böyük çaşka kappuçinonun hazırlanması 3 aya başa gəlib. Kappuçinonun hazırlanması klassik qaydada olub. 2009-cu ildə Praqada da 2117 litr kappuçino hazırlandığı iddia edilsə də, bu, "Ginnesin rekordlar kitabı"na düşməyib.

# Piton 3 ayda 3 maral yeyib

Amerikada uzunluğu 4 metrə yaxın olan piton tapılıb. Pitonun 3 maralı yediyi məlum olub. Uzunluğu 457 santimetr olan pitonun içində birinin çəkisi 45, digər ikisinin isə 17 və 13 kilo olan maral qalıqları aşkar olunub. Milli Parkın əməkdaşları ilanı zərərsizləşdirib parkdan çıxarıblar. Alimlər ehtimal edirlər ki, ilan bu üç heyvanı tutub boğub və onları üç ay ərzində bir-bir yeyib. Böyük ehtimalla ilan onları su kənarında pusub, daha sonra isə boğaraq öldürüb. Bioloq Skott Bobek isə deyib ki, əgər pitonlar üç ay ərzində üç maral yeyə bilirlərsə, deməli, bizim bilmədiyimiz çox şey yeyə bilərlər. Qara pitonun uzunluğu 3.7 metrdir. Bu nümunənin rekord uzunluğu isə 5.74 metrdir.


Boback, S.M. et al. ilo

# Dünyanın ən yaşlı pişiyi itdi

**27 yaşlı, Velvet ləqəbli pişik öz sahibindən qaçıb. 2015-ci ildə onu dünyanın ən yaşlı pişiyi elan etmişdilər. Amerikanın Oreqon ştatının sakini olan Eşli Okura ev heyvanının şəklini İnstaqramda paylaşıb və bildirib ki, pişik 9 oktyabrda açıq qapıdan qaçıb. Həmin gündən etibarənsə onu görmək mümkün olmayıb: "Mən çox pis darıxıram və ümid edirəm ki, pişiyim geri qayıdacaq. Amma məntiq deyir ki, Velvet geri qayıtmayacaq".**

Pişik "Ginnesin rekordlar kitabı"na 2015-ci ildə düşüb. Sahibinin sözlərinə görə, Velvet 1989-cu ildən bəri onunla yaşayır. Həmin vaxt indiki sahibəsinin 7 yaşı olub. Velvet siçan tutmağı və oyun oynamağı sevirmiş. Bu il may ayında isə onun rekordunu 30 yaşlı, Skuter ləqəbli siam pişiyi əlindən alıb. O da Teksas sakini Qeyl Floyda məxsus olub. Həmin pişiksə dünyanın ən yaşlı pişiyi adını alandan bir neçə gün sonra tələf olub.





### Portağal insanın sümüklərini sıradan çıxarır?

**Alimlər portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görür. Britaniya alimləri bu qərara gəliblər ki, dünyada çox məşhur olan limon və xüsusilə də portağal insanların sümük sisteminə zərər vura bilər.**

Alimlər 22 il ərzində 78 min qadının sağlamlığını müayinə ediblər. Onların müşahidəsinə görə, tədqiqatın 778 iştirakçısının dişlərinin vəziyyəti kəskin pisləşib. Təhlil göstərib ki, bu meyvələrdən daimi istifadə edən qadınların 41%-nin dişlərində və diş ətlərində problem müşahidə edilib. Problemin əsas səbəbkarı kimi portağalda olan fruktoza sayılıb. Alimlər qadınlara problemdən qurtulmaq üçün portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər.




**QOÇ** - Göy qübbəsi məsləhət görür ki, nahara qədər enerjinizi dağıtmayasınız. Çünki sonrakı müddətdə bir neçə istiqamətdə fəallaşacağınız gözlənilir. Axşam riskli görüşlərə razılıq verməyin.

**BUĞA** - Maraqlı və zövqlü bir gün yaşayacaqsınız. Sizi dəstəkləyənlər də çoxalacaq. Xeyirxah əməllərinizin sayını artırın. Təxminən saat 16-dan etibarən fəaliyyətinizdə dönüş olmalıdır.

**ƏKİZLƏR** - Qarşınızda bir qədər gərgin gün durduğundan bacardığınız qədər təmkin nümayiş etdirməlisiniz. Ailədaxili problemlərinizin həllinə çalışın, onlarla birlikdə əylənməyə çalışın.

**XƏRÇƏNG** - Günün ilk yarısında bir qədər pərişanlığınız gözlənilir. İnsanlara münasibətinizi dəyişin. İşlə bağlı gözləntiləriniz müsbət nəticə verməlidir. Digər yeniliklər də gözlənilir.

**ŞİR** - İlk növbədə şəxsi büdcənizin durumunu dirçəltməyə çalışın. Çünki indiki məqamda problemlərinizin az qala hamısı pula bağlıdır. Əgər planlaşdırmısınızsa, səfərə çıxa bilərsiniz.

**QIZ** - Yalnız münasibətləri düzəltmək baxımından uğurlu gündür. Bu səbəbdən fəaliyyətə çox da aludə olmayın. Vəziyyəti dirçəltmək üçün ilk növbədə ailədən başlayın. Onların könlünü alın.

**TƏRƏZİ** - Maliyyə çətinliyiniz olsa da, bu tarixi sıxıntı içində başa vurmayacaqsınız. Əksinə, qarşınıza çıxan insanlar sizə böyük ümidlər verəcək. Dəyərli məsləhətləri eşitməyə hazır olun.

**ƏQRƏB** - Qarşınızda xoş bir gün durub. Qarşılıqlı münasibətlərdə mövcud olan kəm-kəsirlər xeyli yumşalacaq. Yüksək çinli adamlarla görüşləriniz perspektivlərinizi reallığa yaxınlaşdıracaq.

**OXATAN** - Səhhətinizin qayğısına qalsanız, gün ərzində digər xoşagəlməzliklərlə rastlaşmayacaqsınız. Xüsusən də nəqliyyatda ehtiyatlı olmalısınız. Tanımadığınız adamlarla təmasa girməyin.

**OĞLAQ** - İşlə bağlı aktivliyinizi artırın. Aldığınız hər bir tapşırığı ləyaqətlə icra edin. İnsanlara elə münasibət göstərin ki, qoy sizə güvənənlər daha da etibar etsin. Əks cinslərə qarşı kobud olmayın.

**SUTÖKƏN** - Dünəndən mənfi yüklü Ay bürcünüzə daxil olduğu üçün nəzərdə tutduğunuz işlərin həyata keçməsində əngəl ola bilər. Qətiyyətinizi azaltmayın. Bu gün maddi durumunuzda irəliləyiş olsa da, səhhətinizi də qorumalısınız.

**BALIQLAR** - Ulduzlar məsləhət görür ki, gün ərzində özünüzü çox yormayasınız. Vaxt tapıb qohum-əqrabanıza da baş çəkin. Günün ikinci yarısında işgüzar sövdələşmələrə başlamaq uğurlu nəticə verəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

### Bu şalvar qadınları sellülitdən xilas edir



Bədən temperaturunu normal saxlayaraq, qanın hərəkətini sürətləndirən şalvarlar qadınların ən yaxın dostu olacaq. Çünki braziliyalı modelyer Aleksandra Herçkoviç tərəfində hazırlanan şalvar qadınların bədənini sellülitdən xilas edir. Rio de-Janeyrodakı moda həftəsində ictimaiyyətə tanıdılan cins şalvar sahibinin bədən temperaturunu normal saxladığı üçün orqanizmi bir çox problemlərdən uzaq tutacaq. Qəribə şalvar 5 illik araşdırmalardan sonra hazırlanıb. Şalvarın satışa çıxarıldıqdan sonra rekord sayda satılacağı gözlənilir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 4.750